# KİMYA MƏSƏLƏLƏRİNİN NÖVLƏRİ

**M.M.Abbasov[1], T.F.Vəlizadə[2], J.E. Məstəlili[2], L.S.İbrahimli[2], G.H.Əliyeva[2]**

*[1]AMEA Neft-Kimya Prosesləri İnstitutu*
*[2]Azərbaycan Dövlət Pedaqoji Universiteti*

## Ümumi şəkildə verilən məsələlər

Kimyadan bir çoxməsələlər elə ümumiləşdirilir ki, onları nəinki xüsusi halda, həmdə nəzəri həll etmək üçün umumi prinsiplər mövcuddur. Bu prinsiplər mikro - EHM-dakı proqramlarla verilmiş riyazı formullardan istifadə etməkdən ibarətdir. Məsələnin umumi şəkildə həlli riyazi mərhələlərin sayını azaldır və məsələnin kimyəvi mahiyyətini önə çəkir. Hesablama üçün lazım olan ümumi tənliyi seçilməsinə az vaxt sərf olunur. Sonda sadə və sürətli hesablama əməliyyyatı aparılır.

**Məsələ 1**. Müəyyən miqdar b %-li xlorid turşusu məhlulunda a qram sirkə tamamilə həll edilir. Maddələr eksvimolyar miqdarda götürülür. Alınan məhluldakı duzun faizlə qatılığını hesablamaq üçün formul müəyyən edin.

**Həlli:** $\nu$ ( Zn ) = m /Ar = a /65 mol. $Zn + 2HCl \rightarrow ZnCl_2 + H_2\uparrow$
a/65 2a/65mol a/65mol

Şərtə görə m(HCl) =$\nu$· M = (2a/65)· 36,5 = 73a/65 qram

M($ZnCl_2$) = $\nu$· M = (a/65) · 136 = 136a/65 qram

Məhlulun faizlə qatılığının tərifinə əsasən

100qr məhlulda → b qr HCl var .

X qr məhluldan → 73a /65 qrHClolan.

$$X = \frac{100 \cdot 73a}{65b} qr$$

Başlanğıc məhluldakı suyun kütləsi

$$M(məh) - m(HCl) = \frac{100 \cdot a}{65b} - \frac{73a}{65} = \frac{73a(100-b)}{65b} qram$$

Son məhlulun kütləsi su ilə $ZnCl_2$ – in kütlələri cəmindən ibarətdir .

$$m(məh)_{son} = m(su) + m(ZnCl_2) = \frac{73a(100-b)}{65b} + \frac{136b}{65} = \frac{73a(100-b)+136b}{65b}$$

Bundan sonra $ZnCl_2$- nin % - lə qatılığını hesablamaq olar.

$\frac{73a(100-b)+136ab}{65b}$ qram məhlulda → $\frac{136a}{65}$qr $ZnCl_2$ var.

Bu tənasübdən: $y = \frac{13600b}{7300+63b}$ və ya $\frac{136b}{73+a+63b}$ %

**Məsələ 2 .**

| Qarışdırılan maddələr | | | |
|---|---|---|---|
| $H_2O$ | Kristallohidrat | Kristallohidratın malyar kütləsi | Kristallohidratda ᵞ ($H_2O$) |
| M qram | N qram | M q/mol | a mol |

Alınan son məhluldaki duzun % - lə qatılığını hesablayın.

Həlli: Suyun və kristallohidratdakı susuz duzun kütləsini hesablayaq.

M qram kristallohidratda → 18 a qram $H_2O$ var

N qram kristallohidratda → X qram $H_2O$ olar

Buradan $X = \frac{18an}{M}$ qram $H_2O$

Onda susuz duzun kütləsi, m(duz) = m(kristallohidrat) m (su) = n - $\frac{18an}{M}$ qram olar.

Tənasüb qurmaqla alınan məhlulun % - lə qatılığını tapmaq olar.

M(məh) = m(su) + m(krist) =(m+n)qram.Onda:

(m + n)qr məhlulda → n-$\frac{18an}{M}$ qram duz varsa,

100 qr məhlulda → y qr susuz duz olar.

Buradan: $y = \frac{100n\ (M-18a)}{M\ (m+n)}$ qr

Məhlulun 100 qramında neçə qram duz varsa, onun faizlə qatılığında bir o qədər duz olar .

Cavab : $\frac{100n\ (M-18a)}{M\ (m+n)}$ %

**Məsələ 3 .**

| Qarışdırılan maddələr | | | |
|---|---|---|---|
| $H_2SO_4$məhlulu | | | $BaCl_2$artıqlamasıiləgötürülmüşdür |
| m(qr) | ᵞ(ml) | Sıxlığı (q/ml) | m(qr) |
| m | A | D | n |

Reaksiyadan sonra əmələ gələn çöküntü süzüldükdən sonra alınan məhluldakı $BaCl_2$-nin faizlə qatılığını hesablamaq üçün ümumi formul çıxarın. $M(H_2SO_4)$=98; M ($BaCl_2$) = 208q/mol

**Həlli:** m məh ($H_2SO_4$) = 9 · ᵞ = d · a qram.

Həmin məhlulda ᵞ($H_2SO_4$) = m/m = m/98 mol $H_2SO_4$ var.

$\nu(BaCl_2) = m/M = n/208$

$H_2SO_4 + BaCl_2 \rightarrow BaSO_4\downarrow + 2HCl$ tənliyinə əsasən reaksiyaya daxil olan $BaCl_2$ – nin mol miqdarı $H_2SO_4$- nin mol miqdarına bərabər olmalıdır . Elə isə də $\nu(BaSO_4) = \nu\ H_2SO_4$ olmalıdır.

Onda: $m(BaSO_4) = \nu\cdot M = \frac{m}{98}\cdot 233 = \frac{233m}{98}\ qr = 2{,}38m$

Artıq qalan $BaCl_2$ – nin mqdarı isə

$\nu(BaCl_2)baş - \nu(BaCl_2)_{r.s.ol} = \frac{n}{208} - \frac{m}{98}mol$

$M(BaCl_2)\ artıq = \nu\cdot M = (\frac{N}{208} - \frac{M}{98})\cdot 208 = (n - 2{,}1\ m)\ qr.$

Çöküntü süzüldükdən sonra alınan məhlulun kütləsi

$m_{(məh)}$ alınan $= m(H_2SO_4) + m(BaCl_2) - m(BaSO_4) = a\cdot d + n - 2{,}38\ m.$

Artıq qalan $BaCl_2$- nin faizlə qatılığını aşağıdakı tənasüblə müəyyən edək (yəni 100qr məhluldakı $BaCl_2$ -nin kütləsini hesablayaq).

$(a\cdot d+n-2{,}38m)$qr məhlulda → $(n-2{,}1m)$qr $BaCl_2$ var.

100qr məhlulda → x qr

$x = \frac{100\cdot(n-2)m}{a\cdot d+n-2{,}38m}$ və ya $\frac{100\cdot(n-2{,}1m)}{a\cdot d+n-2{,}38m}$ %

**<u>Məsələ 4 .</u>** Q qram suda b qram $BaX_2$ duzu və C qram ikivalentli metalın kristallahidratını ($MeSO_4\cdot y\ H_2O$) suda həll edirlər (duzlar ekvimolyar miqdarda götürülür). Reaksiyadan sonra $BaSO_4$ çöküntüsünü süzüb ayırırlar. Alınan məhluldakı $MeX_2$ duzunun faizlə qatılığını hesablamaq üçün düstur çıxarın.

Əgər aşağıdakı şərtlər götürülsə , hesablamaq üçün müəyyən etdiyiniz formul dəyişərmi?

a) Kristallohidratın yerinə susuz $MeSO_4$ götürülür;
b) İkivalentli metalın sulfatının əvəzinə birvalentli metalın sulfatı götürülərsə:

**<u>Həlli:</u>**Reaksiyayadək məhlulun kütləsi m(məh) = a+b+c qramdır. Məhlulda gedən reaksiyanın tənliyini yazaq:

$$BaX_2 + MeSO_4\cdot yH_2O = BaSO_4\downarrow + MeX_2 + yH_2O$$

Sxemdəki bütün maddələrin $BaX_2$, $MeSO_4\cdot yH_2O$ , $BaSO_4$ və $MeX_2$ kütlələrinin müvafiq olaraq $m_1$, $m_2$, $m_3$, $m_4$ ilə işarə edək. Əmələ gələn $BaSO_4$ və $MeX_2$- nin kütləsini hesablayaq.

$BaX_2$duzuna əsasən $m(BaSO_4) = \frac{bm_3}{m_1}$ qram,

$MeX_2$duzunun kütləsi $m\ (MeX_2) = \frac{bm_4}{m_1}$qram olur.

$BaSO_4$ çöküntüsünü ayırdıqdan sonra alınan məhlulun kütləsi aşağıdakı kimi müəyyən edilir.

$$m_{(məh)alınan} = m_{(məh)baş} - m(BaSO_4) = (a+b+c) - \frac{bm_3}{m_1} = \frac{(a+b+c)m_1 - bm_3}{m_1} \text{ qram}$$

$MeX_2$ duzunun qatılığını tənasüb qurmaqla hesalamaq olar.

$\frac{(a+b+c)m_1 - bm_3}{m_1}$ qr məhlulda → $\frac{bm_4}{m_1}$ qr $MeX_2$ var.

100 qr məhlulda → x qr $MeX_2$ olar.

$\frac{100\, bm_4}{(a+b+c)m_1 - bm_3}$ və ya $\frac{100\, bm_4}{(a+b+c)m_1 - bm_3}$ %

1) Əgər kristallohidratın əvəzinə , susuz duz götürülsə , onda kristallohidratın kütləsinin yerinə susuz duzun kütləsi yazılmalıdır.
2) Əgər ikivalentli metalin sulfatının əvəzinə birvalentli metalın sulfatın götürülsə onda reaksiya tənliyi aşağıdakı kimi olar.
   $MeSO_4 + BaX_2 = BaSO_4 \downarrow + 2MeX$
   Buradan aydın olur ki , $MeX_2$ duzunun əvəzinə ($m_4$) MeX götürülsə onun mol miqdarı 2 dəfə artıq olur və kütləsi $m_5$ olar. Onda formulda $m_4$- ünəvəzin $m_5$ yazmaq lazımdır. Qatılığın hesablanması üçün tapılmış formul 2 dəfə artıq olar.Yəni:
   $\omega(MeX) = 100 \cdot m_5$ və ya 200 $bm_5$ %
   $2 \cdot (a+b+c)m_1 - bm_3 (a+b+c)m_1 - bm_3$

**Baş sındırıcı məsələlər.**

Bu tip məsələlər qismən və ya tamamilə şiriflənmiş şəkildə maddələr çevrilmələri əsasında tərtib dilir. Baş sındırıcı məsələləri iki qrupa bölmək olar.

3) 1 Başlanğıc maddə məlum olmur , lakin onun qarşılıqlı təsirdə olduğu reagentlər və onların qarşılıqlı təsir nəticəsində alınan maddə məlum olur. Bu tip məsələlər analitik kimyanın tətbiqi məsələrinə çox yaxın olur .
4) 2 Çox maddələr məlum olmur .Ona görədə bu tip məsələlər həll etmək çox çətin olur .
5) Baş sındırıcı məsələlərdə məsələnin həllinin gedişində müəyyən hesablamaları aparmaq üçün rəqəmlə verilmiş mə
6) lumatlardan ola bilər.

Baş sındırıcı məsələlərin həllinə ümumi yanaşma aşağıdakı kimidir. Maddələrdən heç olmasa birini identifikasiya edib, çevrilmələr zəncirindəki şiriflənmiş bütün maddələri müəyyən etmək olar. Başqa sözlə məsələnin şərtində verilən zəncirdəki həlqələrin birindən istifadə edərək məsələni bütünlükdə həll etmək olar. Bu məqsədlə bəzən elə işlək hipotezlər seçmək lazımdır ki, hipotezlər və məsələnin şərti bir-birinə uyğun gəlsin. Ona görə ki, həmişə maddə və ya

tənliklərin identifiksiyasını bir mənalı aparmaq olmur. Bəzən məsələnin şərtini ödəyən maddənin seçilməsində sərbəst seçim hipotezinin tətbiqi effektiv olur, lakin məsələnin həlli yolunda məsələnin şərti ilə sərbəst seşim hipotezi arasındakı müqayisə məsələnin həlli yolunda çətinliklər yaradır.

Qeyd etmək lazımdır ki, ədədi məlumatlar olmayan baş sındırıcı məsələlər, şagirdlərə qarşılıqlı təsirdə olan maddələrin kütlə payı verilmiş məsələlərdən daha çətin gəlir. Maddə tərkibi haqqındakı məlumatlar şagirdlər üçün dərhal müəyyən bir hipotez irəli sürməyə imkan verir.

Ümumiyyətlə bu tip məsələlərin həlli indeksiya və dediksiya metodlarından bir neçə dəfə istifadə etməkdən ibarətdir.

Təəssüfki elə hallar olur ki, bu tip məsələlər lazımi metodiki səviyyədə tərtib edilmir.Onda şagird bu tip məsələləri həll edərkən "tapmaca metodundan" istifadə etməklə həll edir. Lakin belə məsələləri şərtdə verilmiş maddə və çevrilmə arasındakı məntiqi əlaqə ilə həll etmək lazımdır.

**Məsələ 1**. Ağ rəngli bərk A maddəsini ağır yağlıtəhər B mayesində həll edirlər. Bu zaman suda yaxşı həll olan şəklində C qazı ayrılır. C qazı neftin piroliz məhsullarından biri ilə qarşılıqlı təsirdə olduqda ağrikəsici kimi istifadə edilən Q birləşməsi əmələ gəlir. Q maddəsini közərtdikdə C, D maddələri və su əmələ gəlir. D maddəsi, J maddəsinin məhlulunda udularaq güclü oksidləşdirici olan zəif Z turşusu və bərk İ maddəsi əmələ gətirir. İ maddəsinin kristallik modifikasiyalarından biri Mikelanjelo tərəfindən Davidon heykəlinin düzəldilməsində istifadə edilmişdir.

1.A – İ maddələrini müəyyən edin.

2.Reaksiyaların tənliklərini yazın.

Nə üçün Davidin heykəli muzeyin bağlı yerində saxlanılır, lakin muzeyin həyətində onun tuncdan kopiyası qoyulmuşdur?

**Həlli:** 1)Məsələnin həllinin açarı İ maddəsidir.

Məlumdur ki, Davidin heykəli mərmərdən hazırlanmışdır. Onda:

A⇨NaCl və ya suda həll olan istənilən ağ rəngli xlorid ola bilər.

B⇨ qazı $H_2SO_4$ ; C⇨ halında HCl;

Q⇨xloretan ($C_2H_5Cl$); D ⇨ $CO_2$ ; J ⇨ ağardıcı ahəng CaOCl;

Z⇨ hipoxlorit turşusu HclO ; İ ⇨ $CaCO_3$

2)Reaksiya tənlikləri.

$NaCL + H_2SO_4 \rightarrow NaHSO_4 + HCl\uparrow$ $HCl + C_2H_4 \rightarrow C_2H_5Cl$

$C_2H_5Cl + 3O_2 \rightarrow 2CO_2 + 2H_2O + HCl$

$CO_2 + 2CaOCL_2 + H_2O \rightarrow 2HClO + CaCO_3\downarrow$ $CaCL_2$

3) Davidin heykəli, kalsium – karbohidratın motifikasiyalarından biri olan mərmərdən hazırlanmışdır.Heykəlin üst hissəsinin atmosferə tullanmış $NO_2$

və $SO_2$ qazlarının yaratdığı turşu yağışlarından dağılması üçün bəşəriyyətin ən orjinal əsərini qorumaq üçün onu muzeyin bağlı hisəsində saxlayırlar.

**Məsələ 2.**İkivalentli metalın duzunun A məhlulunu ağ çöküntünün filtirləmək ayırırlar. Alınan məhlulu B zaman pisiylə qaz ayrılır və iki çöküntünün qarışığı əmələ gəlir. Bu çöküntülər qarışığı qismən nitrat turşusunda, sulfat turşusunda və NaOH məhlulunda həll olur. Hər üç alda eyni bir D maddəsi həll olmamış halda qalır. Gümüş – sulfat məhlulu ilə B duzunun məhlulu qarışdırıldıqda tuşularda həll olmayan tünd rəngli çöküntülər qarışığı əmələ gəlir .

Məhlulda isə praktiki olaraq yalnız saf su qalır. B maddəsi almaq üçün D maddəsini kömürlə birlidə közərtmək lazımdır. Bu zaman Q qazı əmələ gəlir. Bütün maddələri müəyyən edin , reaksiyaların tənlilərini yazın.

**Həlli:** Məsələnin şərtində ədədlə heç bir məlumat verilmir. Ona görədə nədən başlamaq tamamilə aydın deyil . Bu məsələnin bir neçə üsulla həllinə baxaq.

**I üsul.** Məsələnin belə nəticə çıxarmaq olar ki, A məhlulunun $Ag_2SO_4$ məhlulu ilə reaksiyasından alınan X duzu Ba və ya $S_r$– un, $Ag_2SO_4$ ilə reaksiyasından alınan $MeSO_4$ çöküntüsü və ya AgCl çöküntüsü əmələ gətirən xloridi ($BaCl_2$, $S_rCl_2$ ) ola bilər. Sübut edək ki, birinci hal ümumi deyil.

Həqiqətəndə birinci halda filtirat gümüş duzu, B məhlulu ilə iki çöküntü qarışığı və pis iyli qaz ayırmaqla qarışıqlı təsirdə olmalıdır . Bu da mümkün deyil. Onda belə nəticə çıxır ki, A⇨$MCl_2$

Formuluna malik naməlumduz olmalıdır.(Çünki gümüşün digər halogenidləri müəyyən rəngə malikdir ).Şərtə əsasən $MSO_4$ məhlulu ilə B- nin məhlulunun qarşılıqlı təsiri zamanı turşuda həll olmayan tünd rəngli çöküntülər qarışığı alınır . Onda fərz etmək olar ki, B –sulfitdir. Bu da B-nin məhlulunun birinci filtiratla qarşılıqlı təsirdə olduğunu əlavə olaraq təsdiq edir.Onda $BaSO_4$ turşuda həll olmadığı üçün B⇨BaS –dir. Beləliklə 1-ci reaksiya aşağıdakı kimidir.

$MeCl_2 + AgSO_4 = 2\ AgCl\downarrow + MSO_4\downarrow$

$MeSO_4$ məhlulu ilə BaS məhlukunu qarışdırdıqda dəyişmə reaksiyası nəticəsində əmələ gələn sulfit duzunun hidrolizi nəticəsində naməlum metalın hisroksidi ilə pis iyli $H_2S$ qazı əmələ gəlir

$BaS + MeSO_4 + 2HO \rightarrow BaSO_4\downarrow + Me(OH)_2 + H_2S\uparrow$

Məsələnin şərtini yalnız $BeCl_2$ ödəyir. Ona görə ki, digər metalların xloridləri, sulfatları həll olandır və həll olmayan sulfit əmələ gətirir. Məsələnin şərtinə görə isə əmələ gələn sulfit tamamilə hidrolizə uğramalıdır ki, pis iyli $H_2S$ qazı ayrılsın.

**II üsul .** Maddələrin təyinini, $Ag_2\ SO_4$ məhlulu ilə B duzu məhlulunun qarşılıqlı təsirindən başlamaq olar. Buradan belə nəticə çıxır ki, B duzu Ba və ya Sr – un duzudur. Sonra belə nəticəyə gəlinir ki, B duzu Ba və Sr –un sulfitidir.

**III üsul** . (Daha sadə üsul). Məsələnin şərtinə görə iki duzun qarşılıqlı təsiri nəticəsində amfoter əsasə əmələ gəlməli və pis iyli qaz ayrılmalıdır . Buradan

dərhal elə fərz etmək olar ki, ikivalentli matalın sulfatı BaS məhlulu ilə qarşılıqlı təsirdə olur. Bu şərti isə yalnız Be – un duzu ödəyir.Çünki $ZnSO_4$– in BaS ilə qarşılıqlı təsirindən ZnSvə $BaSO_4$ çöküntüləri qarışığı əmələ gəlir. Deməli;
A⇉$BeCl_2$, B⇉BaS ; D⇉ Ba $SO_4$ ; Q⇉ CO
Müvafiq reaksiyaların tənlikləri:
$BeCl_2 + AgSO_4 \rightarrow BeSO_4 + 2Ag\,Cl\downarrow$
$Ag_2SO_4 + BaS \rightarrow Ag_2S\downarrow + Ba\,SO_4\downarrow$
$BaS + BeSO_4 + 2H_2O \rightarrow BaSO_4\downarrow + Be(OH)_2\downarrow + H_2S\uparrow$
$Be(OH)_2 + 2H^+ \rightarrow Be^{2+} + 2H_2O$
$Be(OH)_2 + 2OH \rightarrow [Be(OH)_4]^{2-}$
$BaSO_4 + 4C \rightarrow BaS + 4CO$

**Sübut tələb edən məsələlər**

Bir sıra məsələlərdə müəyyən tələbata və qaydalara tabe olan maddənin mövcud olduğunu sübut etmək lazımdır. Bu cür sübutlar məntiqi analiz bacarığı tələb edir və kimyəvi biliyi aktiv formaya keçirir.
**Məsələ1.** Aşağıdakı şərtləri ödəyən yalnız iki qazın olduğunu sübut edin.
Onun bir həcminin tam yanmasına 1,5 həcm oksigen sərf olunur;
1 həcminin tam yanması zamanı 1 həcm $O_2$ qazı əmələ gəlir;
Qazın yanmasının əsas məhsulları arasında adi şəraitdə bərk halda olan maddə yoxdur.
**Həlli:** Axtarılan qazın yanma tənliyini aşağıdakı kimi yazmaq olar:
$X + 1{,}5O_2 \rightarrow Q + ...$
Aydındır ki, X qazının tərkibində elə qeyri-metallar olmalıdır ki, onun yanması zamanı adi şəraitdə qaz və ya maye halda olan oksidlər əmələ gəlsin(boranlar və silanları dərhal kənarlaşdırmaq lazımdır, çünki onların yanması zamanı adi şəraitdə bərk halda olan $B_2O_3$ və ya $SiO_2$ oksidləri alınır). Fərz edək ki, başlanğıc qazın molekulunun tərkibinə yalnız bir element daxildir. O da reaksiya nəticəsində oksidləşmə dərəcəsini dəyişir. Onda reaksiyanın elektron balansı aşağıdakı kimi olar:
$E^z - ne^- \rightarrow E^{z+n}$
$2O^0 + 4e^- \rightarrow 2O^{2-}$
Məsələnin şərtinə görə 4/n=1/1,5; buradan n=6. Elektron balansından belə nəticə çıxır ki, elementin oksidləşmə dərəcəsi 6 vahid dəyişir. Bu yalnız $S^{2-} - 6e^- \rightarrow S^{4+}$ keçidinə uyğundur. ($H_2Se$, $H_2Te$ və tərkibində $Se^{2-}$ və $Te^{2-}$ ionları olan digər maddələr yandıqda $SeO_2$ və $TeO_2$ kimi bərk maddələr əmələ gəlir). Tərkibində $S^{2-}$ ionu saxlayan yalnız iki qaz var, $H_2S$ və COS.

Fərz edək ki, başlanğıc qazın tərkibində oksidləşmə dərəcəsini dəyişən iki atom vardır. Onda hər bir elementin oksidləşmə dərəcəsi 3 vahid dəyişməlidir. Bu da real deyildir.

Qeyd etmək lazımdır ki, məsələnin şərtində yalnız qazın yanma məhsulları deyil, əsas məhsulların mövcud olması faktı çox mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, tərkibində kükürd olan birləşmələrin yanması zamanı bir qədər də $SO_3$ alınır. Lakin karbonlu birləşmələr natamam yandıqda qismən sərbəst karbon və dəm qazı alınır.

**Məsələ 2.** İki oksigenli turşunun duzlarının qarşılıqlı təsiri nəticəsində 5 maddə əmələ gələn reaksiyalara misal göstərin. Reaksiyanı əmsallaşdırın. Əgər bu reaksiyada başlanğıc duzlardan biri oksigenli turşunun 4 elementdən ibarət turş duzudursa, əmsallar yalnız bir qiymət alırsa, onda duzlar arasında 5 və 5-dən çox maddə alınması ilə reaksiya gedə biləcəyini sübut edin.

**Həlli:** Məsələnin şərtini aşağıdakı reaksiyalar ödəyə bilər.

$$4NaHSO_4 + 3K_2MnO_4 = 2Na_2SO_4 + 2K_2SO_4 + MnO_2 + 2KMnO_4 + 2H_2O$$

Digər misal:

$$NaHSO_4 + K_2FeO_4 = Na_2SO_4 + K_2SO_4 + Fe_2(SO_4)_3 + H_2O + O_2\uparrow$$

Reaksiyanı əmsallaşdırmaq üçün aşağıdakı elektron balansını quraq:

$$2O^{2-} - 4e^- \rightarrow 2O^0 \quad | \; 3$$
$$2Fe^{6+} + 6e^- \rightarrow 2Fe^{3+} \quad | \; 2$$

Elektron balansına əsasən $K_2FeO_4$, $Fe(SO_4)_3$ və $O_2$-nin qarşısında tapılan əmsalları yazıb, onun nəticəsində $K_2SO_4$-ün əmsalını da yazmaq olar. Lakin $NaHSO_4$ və $Na_2SO_4$-ün əmsalları məlum olmur. Bu halda riyazi üsuldan istifadə etmək olar. Alınan tənliyi yazaq:

$$2xNaHSO_4 + 4K_2FeO_4 = xNa_2SO_4 + 4K_2SO_4 + 2Fe_2(SO_4)_3 + xH_2O + 3O_2$$

$SO_4^{2-}$ ionlarının sayının tənliyin sağ və sol tərəfində mol miqdarının bərabər olması üçün reaksiya tənliyindən 2x = x + 4 + 6 alınır. Buradan x=10 və 2x=20 olur. Onda reaksiya tənliyi aşağıdakı kimi olur.

$$20NaHSO_4 + 4K_2FeO_4 = 10Na_2SO_4 + 4K_2SO_4 + 2Fe_2(SO_4)_3 + 10H_2O + 3O_2$$

İndi isə sübut edək ki, iki maddənin qarşılıqlı təsiri zamanı 5 və ya daha çox maddə alınır, birmənalı əmsallaşdırılır, başlanğıc duzlardan birinin tərkibində 4-dən az olmayan element vardır. Həqiqətən də iki maddənin qarşılıqlı təsiri zamanı 5 maddə əmələ gəlirsə, onda reaksiyada əmsallar 5+2-1=6 kimi olmalıdır ki, əmsallardan biri ümumi halda sərbəst seçilir. Tənliyin sağ və ya sol tərəfindəki elementlərin mol sayı riyazi bərabərliklə bağlıdır. Əgər hər bir duz yalnız üç elementdən ibarətdirsə, onda biz yalnız 5 naməlum tənlik yazmalıyıq (oksigen hər iki duz üçün ümumi elementdir). Bizə isə 5 yox 6 tənlik yazmaq lazımdır (çünki 6 əmsal var). Deməli belə halda əmsalların seçilməsində saysız variantlar vardır.

## Krosvord və test xarakterli məsələlər.

Müəyyən şərti və tələbatı ödəyən maddələri seçməklə reaksiya tənliklərinin seçilməsinə aid məsələləri şərti olaraq krosvord və test xarakterli məsələlər

adlandırırlar.

Baş sıdırıcı məsələlərdən fərqli olaraq bu tip məsələlərdən müəyyən ediləcək maddələr və ya tənliklər şifirlənmir. Ona görə də onlar daha yaradıcı xarakter daşıyır və belə məsələlərin həlli zamanı şagirdlər yalnız biliklərini deyil, fantaziyalarını, kəşf etmək qabiliyyətlərini nümayiş etdirə bilirlər. Bir sıra hallarda belə məsələlər həlledilməz görünür. Bu tip məsələlərin digər tip məsələlərdən fərqi ondadır ki, onların həlli birmənalı deyil. Digər tip məsələlərdən fərqli olaraq bu tip məsələlərin həlli üsulu yaradıcı məsələlərə oxşayır.

Test xaraktekrli məsələlər tədris praqramına uyğun olaraq şagirdlərin baza biliyinin yoxlanılmasında, kimyəvi fikirləşmək mədəniyyətinin formalaşmasında böyük rol oynayır. Eləcə də bu və ya digər standart vəziyyətlərdə şagirdlərin analiz etmək qabiliyyətini formalaşdırır.

**Məsələ 1.** İki normmal duzun məhlulunun qarşılıqlı təsiri zamanı az həll olan və ya həll olmayan maddələrin əmələ gəlməsi və qaz ayrılmaması ilə gedən reaksiyalara bir neçə misal göstərin.

**Həlli:** Duzlar bir-biri ilə bir çox hallarda çöküntü əmələ gətirməklə reaksiyaya daxil olurlar. Lakin məsələnin şərti axtarış dairəsini xeyli kiçildir. Məsələnin şərtinə görə reaksiyanın bütün məhsulları suda həll olmalıdır və başlanğıc duzlar turş duz olmamalıdır (əsasi duzların əksəriyyəti suda az həll olandır). Buna baxmayaraq məsələnin şərtini ödəyən reaksiyalar mümkündür.

Az dissosiasiya edən maddə əmələ gəlir (kifayət qədər nadir hal)

$FeCl_3 + 3KNCS = Fe(NCS)_3 + 3KCl$

$Hg(NO_3)_2 + 2NaCl = HgCl_2 + 2NaNO_3$

Duzlardan biri artıq götürüldükdə suda həll olan kompleks duz alınır.

$BiCl_3 + 4KJ = K[BiJ_4] + 3KCl$

$FeSO_4 + 6KCN = K_4[Fe(CN)_6 + K_2SO_4$

Duzlar arasında suda həll olan maddə əmələ gəlməklə gedən oksidləşmə-reduksiya reaksiyaları.

Belə hallar öz növbəsində iki variantda bölmək olar

$c_1$) Kation kationu oksidləşdirir

$\overset{+2}{Sn}Cl_2 + 2\overset{+3}{Fe}Cl_3 = 2\overset{+2}{Fe}Cl_2 + \overset{+4}{Sn}Cl_4$

$c_2$) Anion anionu oksidləşdirir.

$Na_2CO_3 + NaOCl = Na_2SO_4 + NaCl$

$c_3$) Kation anionu ya oksidləşdirir, ya da reduksiya edir.

$(NH_4)_2S_2O_8 + 2FeSO_4 = (NH_4)_2SO_4 + Fe_2(SO_4)_3$

**<u>Məsələ 2.</u>** Qüvvətli turş mühitdə, eyni zamanda xlor və manqan(IV)oksid əmələ gəlməsi ilə gedən reaksiyalara misal göstərmək olarmı?

**<u>Həlli:</u>** İlk baxışda elə görünür ki, məsələnin həlli yoxdur. Həqiqətən də qüvvətli turş mühitdə manqan(IV)oksid $Cl^-$ ionunu $Cl_2$-yə oksidləşdirər, digər tərəfdən turş mühitdə manqan $Mn^{2+}$-ə reduksiya olunur. Lakin əksi də ola bilər; reaksiyada manqan atomları reduksiyaedici, xlor atomları isə oksidləşdirici ola bilər. Əgər bu belədirsə, onda reaksiyada xlorun oksidləşmə dərəcəsi azalmalı, manqanın oksidləşmə dərəcəsi isə artmalıdır. Buradan belə nəticə çıxır ki, xlorun oksidləşmə dərəcəsi müsbət olan hər hansı duz reaksiyaya daxil olmalıdır. Məsələn, xlorit və ya xlorat duzu(perxloratlar güclü, lakin yavaş təsir edən oksidləşdiricidir və məhlulda qüvvətli oksidləşdirici təsir göstərir). Manqan baslanğıc birləşmədə +2 oksidləşmə dərəcəli halında olmalıdır ki, $MnO_2$-dək oksidləşsin($H_2MnO_3$). Başlanğıc maddələr kalium-xlorat və manqan(II)sulfat ola bilər. Onlar aşağıdakı kimi qarşılıqlı təsirdə olur.

$$5MnSO_4 + 2KClO_3 + 4H_2O \rightarrow 5MnO_2(H_2MnO_3) + K_2SO_4 + 4H_2SO_4 + Cl_2$$

**<u>Məsələ 3.</u>** Zəif turş məhlul ilə qələvi məhlulunun qarşılıqlı təsirindən sonra qüvvətli turş məhlul alınır. Bu məhlullara misallar göstərin. Neytral məhlul üzərinə qələvi məhlul tökdükdə neytral turş və ya qüvvətli turş mühit əmələ gələ bilər mi?

**<u>Həlli</u>**: Əgər reaksiya oksidləşmə-reduksiya reaksiyası deyilsə, onda fərz etmək olar ki, maddələrin birindəki $H^+$ ionu hər hansı ionla birləşmişdir. Reaksiya nəticəsində bu anion digər maddənin kationu ilə birləşib çöküntü şəklində ayrılır. Bu çöküntü turşularda həll olmur. Onda məsələnin həllini turşularda həll olmayan bir sıra sulfidlər əsasında davam etdirmək olar. Məsələn, NaHS-in məhlulu aşağıdakı 1-ci tənlik əsasında qələvi mühit yaradır.

$$HS^- + H_2O \leftrightarrow H_2S + OH^-$$
$$HS^- + H_2O \leftrightarrow S^{2-} + H_3O^+$$

Lakin bu cür məhlulun üzərinə metal duzunun məhlulu töküldükdə turşularda həll olmayan sulfid çöküntüsü alınar, ayrılan $H^+$ ionu hesabına məhlulun mühiti qüvvətli turş mühit olar.

$$Hg(NO_3)_2 + NaHS = HgS\downarrow + NaNO_3 + HNO_3$$
ph < 7 ph > 7 ph < 7

və ya

$$CuCl_2 + NaHS = CuS\downarrow + NaCl + HCl$$
ph<7 ph>7 ph<7

Aşağıdakı reaksiya tipində maddələr cütünü seçmək daha mürəkkəb olar:

Neytral məhlul + qələvi məhlul = qüvvətli turşu məhlulu

Məsələ burasındadır ki, zəif əsasın kationundan və qüvvətli turşunun anionundan əmələ gəlmiş duzların məhlulda mühiti turş olur və belə duzlar turşularda həll olmayan sulfidlər əmələ gətirə bilər.duzları hidrolizə uğramayan və məhlulda

mühiti neytrala yaxın olan yeganə metal gümüşdür. Onun da sulfidi turşularda həll olmur. Onda məsələnin həlli aşağıdakı reaksiya olur:

$2AgNO_3 + KHS = Ag_2S\downarrow + KNO_3 + HNO_3$
ph≈7 ph>7 ph<7

Qeyd etmək lazımdır ki, $HgCl_2$ ilə NaHS-in arasındakı reaksiya məsələnin həlli kimi götürülə bilməz(baxmayaraq ki, $HgCl_2$ az dissosiasiya edən birləşmədir). Çünki $Hg^{2+}$ ionu hətta onun qatılığının çox az olduğu halda turş mühit yaratmaqla hidrolizə uğrayır. Məsələnin daha asan həlli oksidləşmə-reduksiya reaksiyalarından istifadə etməkdir.

$Cl_2 + H_2O + Na_2SO_3 = Na_2SO_4 + 2HCl$
$KHS + Br_2 = S + KBr + HBr$
$NaHSO_4 + NaOCl = Na_2SO_4 + HCl$

**Məsələ 4.** Elə duz və turşu məhlulları arasında reaksiya tənliyi yazın ki, həmin reaksiyanı ion tənliyi şəklində yazmaq mümkün olmasın.

**Həlli:** Məsələni həll etmək üçün götürülən turşu həddən çox zəif, duz isə praktiki olaraq suda dissosiasiya etməyən, lakin suda həll olan olmalıdır. Mübadilə reaksiyasında əmələ gələn turşuda çox zəif, əmələ gələn duz isə həm suda, həm də əmələ gələn turşuda həll olmamalıdır. Müvafiq olaraq başlanğıc duz zəif turşunun duzu olmalıdır. Az dissosiasiya edən və həll olan duzların tərkibinə adətən əlavə yarımqrup metalları daxil olur. Məsələnin şərtini ödəyən duzların əksəriyyəti suda həll olmayandır. Civənin sianidi müstəsnalıq təşkil edir. Onda başlanğıc turşu sulfid turşusu ola bilər.

$Hg(CN)_2 + H_2S = HgS\downarrow + H_2S$

Məsələnin analoji həlli KCN və $H_2S$ arasında ola bilər (daha bir əlavə yarımqrup metalı Zn suda həll olmayan sianid əmələ gətirir).

**Məsələ 5.** Hansı halda naməlum metalın sulfidinin oksigendə tam yanmasından sonra alınan bərk qalığın kütləsi, başlanğıc sulfidin kütləsindən çox olur?

**Həlli**: Metalların sulfidləri yandıqda həmin metalın oksidi alınır. Ar(S)>Ar(O). Əgər metalın oksidləşmə dərəcəsi dəyişmirsə, onda alınan metal oksidinin kütləsi, başlanğıc sulfidin kütləsindən az olar. Məsələn:

$2ZnS + 3O_2 = 2ZnO + 2SO_2$; m(ZnO)<m(ZnS).

Ar(S) = 2Ar(O) olduğuna görə əgər yanma reaksiyasında metalın oksidləşmə dərəcəsi 2 dəfə artarsa, onda alınan metal oksidinin kütləsi sulfidinin kütləsinə bərabər olar.

$Cu_2S + 2O_2 = 2CuO + SO_2$    $m(CuO) = m(Cu_2S)$

$SnS + 2O_2 = SnO_2 + SO_2$    $m(SnO_2) = m(SnS)$

Əgər yanma reaksiyasında metalın oksidləşmə dərəcəsi 2 dəfədən çox artarsa, onda alınan metal oksidinin kütləsi, başlanğıc sulfidin kütləsindən çox olar.

$4\overset{+2}{V}S + 9O_2 = 2\overset{+5}{V_2}O_5 + 4SO_2$

Yanma zamanı metal oksidinin əmələ gəlməsi vacib deyildir. Əgər metal termiki davamlı sulfat əmələ gətirirsə, onda yanma nəticəsində əmələ gələn sulfatın kütləsi, başlanğıc sulfidin kütləsindən çox olar.

$Li_2S + 2O_2 = Li_2SO_4$;    $BaS + 2O_2 = BaSO_4$

**Məsələ 6.** Hansı hallarda metalların aktivlik sırasında daha az aktiv metal, daha aktiv metalın duzunun məhlulu ilə reaksiyaya daxil olar? Metalın məhluldakı su ilə reaksiyaya daxil olduğu halları (məsələn, KCl məhluluna, Ba əlavə etmək) nəzərə almayın.

**Həlli:**

1) Duz turş duz ola bilər, çünki metalın duz ilə qarşılıqlı təsirindən $H^+$ ionu $H_2$-yə reduksiya olunar:

$2KHSO_4 + Zn = ZnSO_4 + K_2SO_4 + H_2\uparrow$

$Zn + 2H^+ = Zn^{2+} + H_2\uparrow$

2) Oksidləşmə suyun hesabına olur, məhlula keçən metalın kationu, duzun anionu ilə birləşir.

$K_2SO_4 + Ba + 2H_2O = BaSO_4\downarrow + 2KOH + H_2\uparrow$

3) Oksidləşmə suyun hesabına gedir, metalın hidroksidi əmələ gəlir. Əmələ gələn hidroksid ionu duzun kationu ilə birləşir.

$2Na + CaCl_2 + 2H_2O = Ca(OH)_2\downarrow + H_2\uparrow + 2NaCl$

4) Duzda metal daha yüksək oksidləşmə dərəcəli halında olduqda özündən zəif metalı oksidləşdirə bilər.

$Cu + 2FeCl_3 = CuCl_2 + 2FeCl_2$

5) Oksidləşmə kompleksəmələgətirmə hesabına baş verir.

$4KCN + 2Cu + 2H_2O = 2KCu[(CN)_2] + 2KOH + H_2\uparrow$

6) Duzun hidrolizi nəticəsində mühit turş olur, metal isə $H^+$ ionlarını reduksiya edir.

$Zn + AlCl_3 + 2H_2O = Al(OH)_2Cl + ZnCl_2 + H_2\uparrow$

7) Duzun hidrolizi nəticəsində mühit qələvi olur, metal qələvi mühitdə həll olur.

$2Al + 2K_2CO_3 + 8H_2O = 2K[Al(OH)_4] + 2KHCO_3 + 3H_2\uparrow$

8) Metal duzun anionunu (oksidləşdiricini) reduksiya edir.

$3Mg + Na\overset{+3}{N}O_2 + 5H_2O = 3Mg(OH)_2\downarrow + NaOH + \overset{-3}{N}H_3\uparrow$

$3Mg + KMnO_4 + 4H_2O = 3Mg(OH)_2\downarrow + 2KOH + 2MnO_2$

**<u>Məsələ 7.</u>** Aşağıdakı şərti ödəyən bir-biri ilə ciddi fərqlənən A, B və C maddələr cütünü göstərin. A, B və C-nin tərkibində yalnız bir ümumi element vardır. Lakin A-nın məhlulunun üzərinə B-nin məhlulunu və A-nın məhlulunun üzərinə C-nin məhlulunu tökdükdə eyni bir çöküntü alınır.

**<u>Həlli</u>:** Çöküntünün tərkibinə A-dakı elementlər və suyun elementləri (H və O) daxil olmalıdır.

Əgər B və C, A-nı oksidləşdirdikdə və ya reduksiya etdikdə çöküntü əmələ gətirirsə və ya B və C-ni əlavə etdikdə A həll olan vəziyyətdən, həll olmayan hala keçirsə 1-ci variant mümkündür.

Əgər dəyişmə reaksiyası ilə əmələ gələn duz, hidroksid əmələ gətirməklə tamamilə hidrolizə uğrayırsa 2-ci variant mümkündür. Buradan da məsələnin 3 cür həlli alınar.

1) A→$Na_2S$ (və ya HJ), B→$Cl_2$; C→$Br_2$
   $Na_2S + Cl_2 = 2NaCl + S$ ; $Na_2S + Br_2 = 2NaBr + S$

2) A→ $AlCl_3$ ($CrCl_3$, $BeCl_2$); B→$Na_2S$; C→KOH
   $AlCl_3 + 3Na_2S + 6H_2O = 2Al(OH)_3\downarrow + 6NaCl + 3H_2S\uparrow$
   $AlCl_3 + 3KOH = Al(OH)_3\downarrow + 3KCl$
3) A→ $Fe(OH)_3$-ün kolloid məhluludur; B və C koaqulyasiya edən iki elektrolitdir.Məsələn, $ScCl_3$, $AlBr_3$

**<u>Məsələ 8.</u>** Turşu və duzun qarşılıqlı təsiri zamanı əsas məsələlər bir-birindən fərqlənən bir neçə misal göstərin.

**<u>Həlli</u>:**

1) Tərkibinə yüksək oksidləşmə dərəcəsi göstərən metalın daxil olduğu bir sıra duzlar anionu güclü oksidləşdirici olan turş mühitdə davamsız olur. Məsələn:

$$4H_2SO_4 + 4K_2\overset{+6}{Fe}O_4 + 2H_2O = 4\overset{+3}{Fe}(OH)_3\downarrow + 4K_2SO_4 + 3O_2$$

Analoji olaraq aşağıdakı misalı da göstərmək olar:

$$H_2O + CO_2 + 3K_2\overset{+6}{Mn}O_4 = MnO_2 + K_2CO_3 + 2K\overset{+7}{Mn}O_4 + 2KOH$$

2) Turşu oksidləşdirici, duz reduksiyaedici olduqda, turşu əsasadək reduksiya olunur.

$$6K\overset{-1}{J} + 5H_2\overset{+6}{Cr}O_4 = 2\overset{+3}{Cr}(OH)_3\downarrow + 3J_2 + 3K_2CrO_4 + 2H_2O$$

$$2H_2O + 3Na_2\overset{-2}{S} + 2H\overset{+7}{Mn}O_4 = 3MnO_2\downarrow + 3S\downarrow + 6NaOH$$

3) Turşu reduksiyaedici, duz oksidləşdirici olduqda, turşu duzu əsasadək reduksiya edir.

$2KMnO_4 + 3H_2S = 3S\downarrow + 2KOH + 2MnO_2\downarrow + 2H_2O$

$K_2\overset{+6}{Fe}O_4 + 10H\overset{-1}{J} = 2Fe(OH)_3\downarrow + 4KJ + 2H_2O + 3\overset{0}{J_2}$

4) Əgər duz amfoter hidroksidlərin qələvi ilə reaksiya məhsuludursa, onda daha bir variantda mümkündür.

$NaH_2\overset{+6}{Cr}O_4 + H\overset{-1}{Cl} = Cr(OH)_3\downarrow + NaOH$

$Na_3[Cr(OH)_6] + 3HCl = Cr(OH)_3\downarrow + 3NaCl + 3H_2O$

**Məsələ 9.** $A_{2n} + B_n = B_nA_{2n+2}$ sxemi üzrə reaksiyaya daxil olan elə bəsit maddələr göstərin ki, onların arasında $H_2$ və $X_2$ tipində halogen olmasın.

**Həlli:** Əgər n=1 olarsa onda reaksiya tənliyi $2A_2 + B = BA_4$ şəklini alır. Birləşmə əmələ gətirən B elementi, əmələ gələn birləşmədə ya 4 valentli, ya da 8 valentli olmalıdır. Əgər B-nin valentliyi 4 olarsa, onda A halogen və ya hidrogen olar, bu da məsələnin şərtini ödəmir. Əgər element 8 valentlidirsə, onda məsələnin aşağıdakı həlli var:

$Os + 2O_2 = OsO_4$;  $Ru + 2O_2 = RuO_4$

Əgər bəsit maddələr $RO_4$ tipli oksidədək oksidləşmir. n=4 olduqda reaksiya tənliyi aşağıdakı kimi olar.

$A_8 + B_4 = B_4A_{10}$

Şərti olaraq məsələnin şərtini kükürd və fosfor aşağıdakı tənlik üzrə ödəyir.

$S_8 + P_4 = P_4S_{10}$

$5S_8 + 4P_4 = 4P_4S_{10}$

Aydındır ki, n 4-dən böyük ədəd ola bilməz. Qeyd etmək lazımdır ki, Ru çox yüksək temperaturda $RuO_4$-dək oksidləşir. Bu çox nadir halda mümkündür($RuO_4$-ü $100^0C$-yə qədər qızdırdıqda partlayışlar $RuO_2$ və $O_2$-yə parçalanır).

**Məsələ 10.** A, B və C maddələrinin qarşılıqlı təsiri zamanı yalnız bir D duzu məhlulu alınır və reaksiya nəticəsində bir neçə element oksidləşmə dərəcəsini dəyişirsə, məsələnin şərtini ödəyən bir-birindən fərqlənən A, B və C maddələrinin eyni zamanda qarşılıqlı təsirinə aid bir neçə misal göstərin.

**Həlli:** Reaksiyanın sxemini aşağıdakı kimi yazaq:

$A + B + C = D + H_2O$

Iki hala baxaq:

1) D oksigensiz turşunun $MeX_n$ tipli duzudur. Onda B və C maddələrindən biri hidrogen-peroksid, digəri HX turşusu ola bilər. Turşunun birində X elementi müsbət oksidləşmə dərəcəsinə malikdir, digər turşu isə HX-dır. Onda məsələnin şərtini ödəyən iki variantda həlli vardır.

$SnCl_2 + H_2O_2 + 2HCl = SnCl_4 + 2H_2O$

$6FeCl_2 + 5HCl + HClO_3 = 6FeCl_3 + 3H_2O$

Aşağıdakı variantda da həll mümkündür.

Əsasi duz + turşu + halogen = duz + su

Kationu oksidləşmə qabiliyyətinə malik əsasdan əmələ gələn duz adətən suda həll olmur.

Onda: Əsas + turşu + halogen = duz + su variantı məsələnin cavabı deyil.

2) D oksigenli turşunun duzudursa, onda B və C maddələrindən biri hidrogen-peroksid, digəri əsas ola bilər. Nəticədə hidrogen-peroksid $E(OH)_3$ tipli əsası metalın daha yüksək oksidləşmə dərəcəsinə qədər oksidləşdirir. 3-cü maddə qələvi olmalıdır ki, oksigenli turşunun duzu əmələ gəlsin. Lakin bu cür birləşmə əmələ gətirən elementlər suda həll olmayan əsas əmələ gətirir. Müvafiq olaraq A əsas ola bilməz, lakin amfoter hidroksiddən əmələ gəlmiş duz ola bilər, məsələn xromit duzu.

$$NaH_2CrO_3 + 2NaOH + 3H_2O_2 = Na_2CrO_4 + 6H_2O$$

Məsələnin həlli yalnız bu variantla bitmir. Aşağıdakı hal da mümkündür.

$H_2O_2$ + turşu + qələvi = duz + su

Kompleks birləşmələr əsasında da məsələnin həllini təmin edən variantlar da mümkündür.

$$3H_2[PbCl_4] + NaClO_3 + 5NaCl = 3Na_2[PbCl_6] + 3H_2O$$

**Məsələ 11.** Hansı hallarda $n=1$; $n=0,5$; $n<0,5$; $n=2/7$ nitrat turşusunun 1 molu reaksiyaya daxil olduqda n mol $H_2O$ əmələ gəlir? $n>1$ ola bilərmi?

**Həlli:** Su molekulu $H^+$ və $OH^-$ ionlarının birləşməsindən və ya $HNO_3$-ün $2H^+$ ionundan əmələ gəlməsindən asılı olaraq əgər $HNO_3$ iştirak edən reaksiya oksidləşmə-reduksiya reaksiyası deyilsə, onda 1 mol və ya 0,5 mol su əmələ gələr.

$$KOH + HNO_3 = KNO_3 + H_2O; \quad CuO + 2HNO_3 = Cu(NO_3)_2 + H_2O$$

$H^+$ ionların yarısı $HNO_3$-dən, yarısı başqa maddədən götürülən analoji halda mümkündür.

$$NaHCO_3 + HNO_3 = NaNO_3 + H_2O + CO_2$$

Əgər reaksiya oksidləşmə-reduksiya reaksiyasıdırsa, $n=0,5$ olduğu halda, $HNO_3$ molekulundakı H atomları yalnız su molekulunun əmələ gəlməsinə sərf olunur, oksidləşən maddənin tərkibinə daxil olmur. Məsələn:

$$3Cu + 8HNO_3 = 3Cu(NO_3)_2 + 2NO + 4H_2O$$

Əgər H atomları oksidləşən maddənin tərkibinə daxil olursa, onda $n>0,5$ olur. Məsələn:

$$S + 6HNO_3 = H_2SO_4 + 6NO_2 + 2H_2O$$

Əgər $n=2/7$ olarsa, onda fərz etmək olar ki, reaksiya nəticəsində bəsit maddə 0-dan +7-yə oksidləşir və turşu əmələ gəlir. Bu şərrti aşağıdakı reaksiya ödəyir.

$$3Re + 7HNO_3 = 3HreO_4 + 7NO + 2H_2O$$

Yuxarıdakı analizlərdən belə nəticəyə gəlmək olar ki, $n>1$ ola bilməz. Lakin bu halda biz $HNO_3$ oksidləşdirici deyil, sadəcə turş mühit yaratdığını nəzərə almamışıq. Əgər $n>1$ olarsa, hidrogen, tərkibində hirogen olan digər maddələrin

oksidləşməsi və ya reduksiyasından əmələ gələ bilər. Buna aşağıdakı reaksiyanı misal göstərmək olar:

$$2KMnO_4 + 5H_2O_2 + 6HNO_3 = 2KNO_3 + 2Mn(NO_3)_2 + 5O_2 + 8H_2O$$

**<u>Məsələ 12.</u>** Adi şəraitdə bərk halda olan maddənin A bəsit maddəsi ilə qarşılıqlı təsiri zamanı $Q_1$ qazı ayrılır. Alınan bərk B maddəsinin parçalanması nəticəsidə $Q_2$ qazı ayrılır. Bu şərti ödəyən reaksiyalara misallar göstərin.

**<u>Həlli</u>:** Əgər $Q_1$ bəsit maddədirsə, onda $Q_1$ və $Q_2$ qazları məsələnin şərtini ödəyən $O_2$ və $O_3$ qazları ola bilər. Ozon bəsit maddəni oksidə qədər oksidləşdirir, alınan oksidi qızdırdıqda parçalanmalıdır. Məsələnin şərtini gümüş və civə ödəyir:

$$Ag + O_3 = AgO + O_2\ ;\ \ 2AgO \overset{t}{=} 2Ag + O_2$$

Əgər fərz etsək ki, B maddəsi oksigen ayırmaqla parşalanır, onda $Q_1$ qazı qaz şəklində oksid ola bilər. Məsələn $NO_2$ və ya NO :

$$4Hg + 2NO_2 = 2HgO + N_2;\ \ \ 2HgO \overset{t}{=} 2Hg + O_2$$

Əgər $Q_2$ qazı $Cl_2$ olarsa, onda xlorun qaz halındakı birləşməsi bəsit maddə ilə reaksiyaya daxil olub, asan parçalanan xlorid əmələ gətirməlidir. Əgər $Q_1$ xlorun oksididirsə, onda xlorid oksiddən termodinamiki davamlı olmalıdır. Məsələnin şərtini qızıl ödəyir:

$$Au + ClO_2 = AuCl + O_2(t<50^0C);\ \ 2AuCl \overset{t}{=} 2Au + Cl_2$$

Məsələnin başqa variantlarda da həlli ola bilər.

### Tələqurma məsələləri

Bu tip məsələlər elə tərtib edilir ki, guya ki, məsələnin şərtindən həlli çıxır. Lakin bu yolla məsələnin həlli sonda səhv olur. Əgər məsələnin şərtinə səthi yanaşsan və ya əvvəllər qazandığın biliyi doğmatik şəkildə yeni stiuasiyaya tətbiq etsən, məsələnin şərtində qurulmuş tələyə düşərsən. Tələ qurulmuş məsələləri həll edən zaman birbaşa təcrübə ilə məsələnin həllini axtarsan düzgün olmayan nəticə alarsan.

Bu tip məsələləri həll edərkən onun şərtini bir neçə dəfə analiz etmək lazımdır ki, onda dərin məntiq (tələ) olduğunu müəyyən edə biləsən. Əgər şagirdlər məsələnin həllinə həmişə belə yanaşsalar, onda şox hallarda onlar səhv yollardan qaçarlar.

Tələyə necə düşməmək olar? Təklif kifayət qədər sadədir. Məsələnin həlli nə qədər asan olsa da, həmişə məsələnin şərtini bir neçə dəfə analiz edib, ondakı dərin məntiqi tapmaq lazımdır. Əgər siz dərin biliyə maliksinizsə, yenə də bu məsləhəti yaddan çıxarmayın. Yadda saxlayın ən aqil adamların da sadə səhvləri

vardır.

**Məsələ 1.** $OH^-$ ionlarının molyar qatılığı qələvinin molyar qatılığından 1,5 dəfə çox olan KOH məhlulu hazırlamaq olarmı?

**Həlli:** Bu məsələdə tələ ondan ibarətdir ki, qüvvətli elektrolit məhlullarında ionların qatılığı elektrolitin qatılığına bərabər olmalıdır. Nəzərə almaq lazımdır ki, istənilən elektrolitin duru məhlulunda su molekulunun dissosiasiyasını nəzərə almağı yaddan çıxarmayın. Fərz edək ki, KOH-ın bu məhlulda qatılığı C-dir. KOH qüvvətli elektrolitdir, suda ionlarına tamamilə dissosiasiya edir və $[OH^-] = C(KOH)$.

$OH^-$ ionlarının əlavə qatılığı suyun dissosiasiyası hesabına olur. $OH^-$ ionlarının ümumi qatılığı KOH-ın duru məhlulundakı qatılığından çox olmalıdır. Fərz edək ki, suyun dissosiasiyası zamanı x mol/l $OH^-$ əmələ gəlir, onda $OH^-$ ionlarinin ümumi qatılığı $[OH^-] = C + x$ olur, onda aşağıdakı tənlik sistemini alırıq:

$$\begin{cases} x(c+x) = 1\cdot 10^{-14} \\ c + x = 1{,}5c \end{cases}$$

Bu sistem tənliyi həll etdikdə $c = 1{,}15\cdot10^{-7}$ alarıq.Bu da KOH-ın $6{,}4\cdot10^{-7}$ %-li məhluluna uyğundur.

Qeyd etmək lazımdır ki, bir neçə dəfə distillə ilə alınmış suda KOH məhlulu hazırlamaqla məsələnin həllinin effekti olar. Adi şəraitdə bu cür məhlul hazırlamaq mümkün deyil.

**Məsələ 2.**

$HCl_{(məh)} + NaOH_{(məh)} = NaCl_{(məh)} + H_2O_{(m)} + Q_1$ (57kC)

$HNO_{3(məh)} + NaOH_{(məh)} = NaNO_{3(məh)} + H_2O_{(m)} + Q_2$ (57kC)

$HF_{(məh)} + NaOH_{(məh)} = NaF_{(məh)} + H_2O_{(m)} + Q_3$ (67kC)

$HClO_{(məh)} + NaOH_{(məh)} = NaClO_{(məh)} + H_2O_{(m)} + Q_4$ (38kC)

Nə üçün HCl və $HNO_3$-ün neytrallaşma reaksiyasının istilik effektinin eyni, digər iki halda isə fərqli: $Q_3>Q_2$ və $Q_4<Q_2$ olduğunu izah edin .

**Həlli:** HCl və $HNO_3$ turşuları qüvvətli turşulardır, onlar məhlulda tamamilə ionlarına dissosiasiya edirlər, ona görə də hər iki turşunun neytrallaşma reaksiyasının qısa ion tənliyini aşağıdakı kimi yazmaq olar:

$H^+_{(məh)} + OH^-_{(məh)} = H_2O_{(m)} + Q$

Ona görə də istilik effektləri eyni olur: $Q_1 = Q_2 = 57kC$

Hipoxlorit turşusu zəif turşudur. Onun neytrallaşması zamanı HClO molekulundakı rabitəni qurmaq üçün az enerji tələb olunur. Formal olaraq istilik effektinin az olmasını (38kC) reaksiyanın dönən olması ilə izah etmək olar. Flüorid turşusunun neytrallaşması daha maraqlıdır. HF neytrallaşma reaksiyasının istilik effekti, hətta qüvvətli turşuların neytrallaşma reaksiyasının istilik effektindən yüksək olması şərtdən görünür. Bunun əksi olmalı idi, çünki

məhluldan HF molekulunun polimer molekulları $(HF)_n$ vardır. Onların da qırılmasına əlavə enerji tələb olunur. Tələ də elə buradadır. HF-un neytrallallaşması prosesində məhlulda qüvvətli hidratlaşan $F^-$ ionları əmələ gəlir. Beləliklə $F^-$ ionlarının hidratasiyası zamanı daha çox istilik ayrılır, nəinki HF turşusunun neytrallaşması zamanı. Deməli HF-un neytrallaşması zamanı daha çox istilik ayrılmalıdır, nəinki qüvvətli turşuların neytrallaşması.

**Məsələ 3.** İçərisində su olan iki stəkanın hər ikisinə ayrı-ayrılıqda 0,1qr litium və natrium əlavə olunur. Reaksiya qurtardıqdan sonra hansı stəkan daha çox isti olar?

**Həlli:** Burada tələ ondan ibarətdir ki, aşağıdakı fakt məlumdur. Natriumun metallıq xassəsi, litiumunkundan çoxdur. Ona görə də Na su ilə litiuma nisbətən daha çox aktiv reaksiyaya girməlidir. Buradan da belə nəticəyə gəlmək olar ki, Na-un həll olduğu məhlul daha çox isti olmalıdır. Lakin məsələnin düzgün həlli bunun əksini göstərir. Li və Na su ilə aşağıdakı tənlik üzrə reaksiyaya daxil olub $H_2$ ayırır.

$$2Me + 2H_2O = 2Me^+ + 2OH^- + H_2\uparrow$$

Hər iki reaksiya qüvvətli ekzotermik reaksiyadır. Buna əsasən demək olar ki, 1mol metalın daxil olduğu reaksiyaların istilik effektləri az fərqlənməlidir. Həqiqətən də ilk yanaşmada hesab etmək olar ki, reaksiyanın istilik effekti aşağıdakı faktorlardan asılıdır:

1. Metal atomlarının ionlaşma enerjisindən;
2. Metal ionlarının hidratlaşma istiliyindən;
3. Maddə miqdarından.

Hər bir faktı ayrı-ayrılıqda analiz edək. Na atomu Li-a nisbətən sonuncu (valent) elektronunu

Na-un ionlaşma enerjisinin az olması hesabına daha asan verir. Belə halda Na ilə geden reaksiyanın istilik effekti daha çox olmalı idi. Lakin $Li^+$ ionunun radiusu, $Na^+$ ionuna nisbətən kiçikdir. Ona görə də eyni kütlədə götürülmüş (0,1qr) metallardan Li-un mol miqdarı çox olar. Ona görə də Li olan qabda daha çox $Li^+$ ionu olar. Həmin qabda hidratlaşmış $Li^+$ ionlarının sayı şox olduğu üçün onun hidratlaşmasından ayrılan istilik hesabına Li olan qab daha çox isti olar.

Məsələni aşağıdakı termokimyəvi reaksiyaların analizi ilə həll etmək olar.

$$Li_{(b)} + H_2O_{(m)} = Li^+_{(məh)} + OH^-_{(məh)} + 1/2H_{2(q)} + \Delta H_1$$

$$Na_{(b)} + H_2O_{(m)} = Na^+_{(məh)} + OH^-_{(məh)} + 1/2H_{2(q)} + \Delta H_2$$

Hess qanununa əsasən:

$\Delta H_1 - \Delta H_2 = \Delta H\,(Li^+_{(məh)}) - \Delta H\,(Na^+_{(məh)})$

Cədvəl məlumatlarına əsasən

$\Delta H_1 - \Delta H_2 = -278 - (-240) = -38Kc$

Beləliklə, hər bir metaldan 1mol götürdükdə də Li olan qab daha çox isti olar.

Hesablama aparmadan da metalların elektrokimyəvi gərginlik sırasına əsasən məsələni həll etmək olardı. Aktivlik sırasında Li daha solda yerləşdiyindən onun

ionunun ($Li^+$) hidratlaşması zamanı daha çox istilik ayrılmalıdır. Aktivlik sırasında hər bir metalın yeri onun hidratlaşması zamanı ayrılan sərbəst enerji ilə (Gibbs enerji) ilə müəyyən edilir (entalpiya ilə yox).

**Məsələ 4.** Eyni molyar qatılıqlı ($C_{(son)}= C_{(HCl)}$ = 1mol/l) sezium-hidroksidlə, xlorid turşusu məhlullarının qarşılıqlı təsirindən sonra məhlul hansı mühit turş, qələvi və ya neytral göstərər? Hər iki məhlulun kütləsi eynidir.

**Həlli:** CsOH və HCl məhlulları eyni həcmdə olsaydı (eyni kütlədə yox) məsələnin həlli daha aydın olardı. Belə olan halda hər iki məhlulda eyni mol miqdarda həll olan maddə olardı. Nəticədə onlar tamamilə aşağıdakı tənlik üzrə reaksiyaya daxil olardı və mühit neytral olardı.

$$CsOH + HCl = CsCl + H_2O$$

Əmələ gələn CsCl qüvvətli əsas və qüvvətli turşudan əmələ gəldiyi üçün praktiki olaraq hidroliz etmir və mühit neytral olardı. Məsələnin şərtində isə qarışdırılan məhlulların həcmləri yox, kütlələrinin eyni olduğu verilib. Ona görə də qarşılıqlı təsirdə olan maddələrdən hansının mol miqdarının çox olduğunu aydılaşdırmaq lazımdır. Belə ki, CsOH-ın molyar kütləsi, HCl-un molyar kütləsindən çox-çox böyükdür. CsOH-ın məhlulunun sıxlığı HCl məhlulunun sıxlığından nəzərə çarpacaq dərəcədə böyük olmalıdır. Ona görə də CsOH-ın məhlulunun həcmi V=m/ρ düsturuna əsasən HCl məhlulunun həcmindən az olar. Buradan belə nəticə çıxır ki, reaksiyadan sonra alınan məhlulda HCl artıq miqdarda qalacaq və ona görə də mühit turş olmalıdır. Əgər məsələnin şərtində CsOH əvəzinə NaOH məhlulu götürülsəydi, düzgün nəticə çıxarmaq olmazdı. Belə ki, M(NaOH)≈ M(HCl) və ona görə də biz cədvəl məlumatlarından istifdə etmədən (hansı maddənin məhlulunun sıxlığının kiçik olması) məsələni əll etmək olmazdı.

## Maksimum və minumuma əsaslanan məsələlər

**Məsələ 1.** Elə oksigensiz normal duzların formulunu göstərin ki, birində hidrogenin, digərində oksigenin kütlə payı maksimum olsun.

**Həlli:** Əgər kationda oksigen elementi yoxdursa, onda onun maksimum kütlə payı anionda o halda olar ki, anionda oksigenin sayı çox olsun, duzu əmələ gətirən turşunun əsaslığı az olsun, kationun molyar kütləsi daha kiçik olsun. Ekvivalenti a olan metalın $H_mXO_n$ tərkibli turşu ilə əmələ gətirdiyi normal duzda oksigenin kütlə payının yuxarıdakı faktorlardan asılılığını müəyyən edək. Bu cür duzda oksigenin kütlə payı aşağıdakı kimi hesablanar.

$$\omega(O)=\frac{16n}{ma+16n+Ar(X)}=\frac{16}{(Ar(X)+ma)\cdot\frac{1}{n}+16}$$

Müvafiq olaraq ma + Ar(X) nə qədər böyük olarsa, ω(O) duzda bir o qədər kiçik

olar. a-nın ən kimik qiyməti Be metalı üçün olur(a = 4,5). Perxloratlarda n nitratlara nisbətən çox olur, lakin Ar(N)<Ar(Cl) olur. Beləliklə nitratlar içərisində M(Me) nə qədər kiçik olarsa, ω(O) daha böyük olar. Karbonatlarda ω(O), karbonat turşusunun ikiəsaslı olması hesabına əsasən daha az olur. Beləliklə normal duzlar içərisində oksigenin kütlə payı ən çox olanı (ω(O) = 73%) susuz berillium nitratdır ⇨$Be(NO_3)_2$

Qeyd etmək lazımdır ki, oksigenin kütlə payı $Be(OH)NO_3$ duzunda daha böyükdür, lakin bu duz normal yox, əsasi duzdur. $Be(HCO_3)_2$-də də ω(O) daha böyükdür. Bu turş duz mövcud deyildir.

Hidrogenin kütlə payı daha çox olan duz aydındır ki, ammoniumun əmələ gətirdiyi norml duz olmalıdır. Məsələnin şərtini ammonium-sulfid ödəyir (ω(H) = 11,8%). $NH_4F$ və $NH_4HS$-də ω(H) $(NH_4)_2S$-dəkindən daha azdır. Digər tərəfdən $NH_4HS$ turş duzdur. ω(H) daha böyük olan forma olaraq daha bir birləşmə $NH_4BH_4$-də mövcuddur. Lakin biz sözün həqiqi mənasında duzlara aid olan birləşməyə baxmalıyıq (başqa sözlə adi qeyri-üzvi turşuların duzlarına baxmalıyıq).

**Məsələ 2.** Dibində turşularda həll olmayan dəmir boçkaya müəyyən səviyyəyə qədər səhvən xlorid turşusu tökülür. Turşunun hansı minimal molyar qatılığı dəmir boçkaya dağıdar? Boçkanın diametri 0,5m ,divarının qalınlığı l=4mm-dir. Bütün nöqtələrdə dəmirin həllolma sürəti eynidir.

**Həlli:** Müəyyən molyar qatılığlı xlorid turşusu tökülmüş dəmir boçkanın hündürlüyünün h qəbul edək. Onda turşunun həcmi V(turşu) = $0,25\pi d^2h$ olar. Əgər dəmir tamamilə reaksiyaya daxil olarsa, onda reaksiyaya daxil olan dəmirin kütləsini aşağıdakı formulla hesablamaq olar :

m = $\pi dlh\rho$. Burada ρ-dəmirin sıxlığıdır ($q/sm^3$). Verilmiş formul $l \ll d$ olduqda doğrudur. Reaksiyaya daxil olan dəmirin mol miqdarı $\nu(Fe)=(\pi dlh\rho)/M_{Fe}$ düsturu ilə hesablanır. Əgər məhlulda n mol HCl olarsa, aşağıdakı tənliyə əsasən

$$Fe + 2HCl = FeCl_2 + H_2\uparrow$$

2ν(Fe) = n olar. Onda aşağıdakı tənliyi alarıq.

$$n = \frac{\pi d^2hc}{4000} = 2\frac{\pi dlh\rho}{M_{Fe}}$$

Buradan $C = \frac{8\cdot 10^3 \cdot l\cdot\rho}{M_{Fe}\cdot d} = 9(mol/l)$

Əgər HCl-un molyar qatılığı 9 mol/l və ondan çox olarsa, dəmir boçka tamamilə dağılar.Qeyd etmək lazımdır ki, məsələnin bu cür tərtibi doğru deyil. Belə ki, dəmir boçka turşu ilə kontaktda olduğu yerdə reaksiyaya daxil olacaqdır (digər tərəfdən boçkada dəmirin də daxil olduğu qalvanik cüt əmələ gəlir).Həmin yerdə deşik əmələ gələr və turşu yerə tökülər.

**Məsələ 3.** $20^0C$-də barium-nitratın həllolma əmsalı 92q/l, natrium-sulfatın həllolma əmsalı isə 194q/l-dir. Əgər hər iki duzu 0,200 l suda həll etdikdən sonra alınan məhlulda natrium-nitratın maksimal kütləsi nə qədər olar?

**Həlli.** Məsələnin həllindən aydın olur ki, biz doymuş məhlulları qarışdırmalıyıq. Əks halda $NaNO_3$-ün maksimal kütləsi alınmaz. Reaksiya tənliyinə əsasən fərz edək ki, hər iki məhlulda 1 mol duz həll olub.

$Ba(NO_3)_2 + Na_2SO_4 = BaSO_4\downarrow + 2NaNO_3$

Tənasüb qurmaqla hər iki məhluldakı suyun kütləsini hesablayaq.

1ℓ su = 1000q   $M[Ba(NO_3)_2]$=261q/mol;  M $[Na_2SO_4]$=142q/mol

1000 qr suda  →  92qr $Ba(NO_3)_2$ həll olursa

X qr suda  →  261 qr $Ba(NO_3)_2$ həll olar

1000 q suda  →  194 qr $Na_2SO_4$ həll olursa

Y q suda  →  142 qr $Na_2SO_4$ həll olar

Beləliklə məhlul hazırlamaq üçün 2837 + 732 = 3569 q su götürsək, tənliyə əsasən 2 mol (yəni 170q) $NaNO_3$ alınar.Onda aşağıdakı tənasübü quraq

3569 qr suda  →  170 qr $NaNO_3$ həll olur

200 qr suda  →  Z qr $NaNO_3$ həll olar

Birbaşa hesablama üsulundan da istifadə etməklə məsələni həll etmək olar. Əgər $Ba(NO_3)_2$ məhlulunun hazırlanmasına a qr su tələb olunursa, $Na_2SO_4$ məhlulunun hazırlanmasına 200-a qr su tələb olunar və bu zaman b qr $NaNO_3$ alınar. Sonra b qr $NaNO_3$-ün alınmasına hansı kütlədə $Ba(NO_3)_2$ və $Na_2SO_4$ tələb olunduğunu hesablamaq olar. $Ba(NO_3)_2$ və $Na_2SO_4$ duzlarının həllolma əmsalının qiymətinə əsasən asan həll olunan sistem tənlik qurulur.

**Məsələ 4.** Həcmi 1ℓ olan qaba qaz halında olmayan (ρ= 101kPa, t=25$^0$C) A maddəsi yerləşdirirlər. Sonra qabı germetik bağlayıb, güclü qızdırırlar. Qızdırılma zamanı A maddəsinin dönən olmayan parçalanması baş verir. Əgər sistemi başlanğıc temperaturadək soyutsaq qabdakı təzyiq maksimum nə qədər olar? A tərkibində hidrogen olmayan binar birləşmədir.

**Həlli.** Əgər məsələnin şərtində A-nın tərkibində hidrogen yoxdur, deyilməsəydi, aydındır ki, onda $BeH_2$-ni götürmək olardı. Belə ki, $BeH_2$ ən kiçik molyar ekvivalentə malik binar birləşmədir. Qaz halında olmayan binar hidrogenli birləşmənin 1 qramı parçalanan zaman daha az həcmdə hidrogen ayırır.

A-nın parçalanması zamanı daha çox həcmdə qaz şəkilli maddə ayrılmalıdır və birləşmədə elementlərin molyar ekvivalent kütləsi minimum olmalıdır. Formal olaraq məsələnin şərtini $N_2$ və $O_5$ parçalanması zamanı $NO_2$ və $O_2$ ayrılır, bəsit maddələr əmələ gəlmir. Onda müvafiq olaraq axtarılan birləşmə $Cl_2O_7$ olar.($Cl_3N$-nin 1 qramı parçalananda daha az həcm qaz ayrılar.)$Cl_2O_7$-nin 1qramının parçalanmasından sonra 25$^0$C-də alınan qazın həcmini hesablayaq:

$Cl_2O_7 \rightarrow Cl_2\uparrow + 3{,}5O_2\uparrow$     $M(Cl_2O_7)$ = 183qr/mol

1 mol $Cl_2O_7$- dən 4,5 mol $Cl_2$ və $O_2$ qazları qarışığı alınır. Onda aşağıdakı tənasübü quraq:

183 qr $Cl_2O_7$-dən → 4,5·22,4 *l* qaz qarışığı alınır

1 qr $Cl_2O_7$-dən → x *l* x = 0,55 *l*

0,55 qaz $25^0$ $V_{298}$=(0,55·298)/273=0,6*l*/həcm tutur. Qabdakı təzyiq

$P=(P_0 \cdot 1{,}6)/1=\frac{101kPa \cdot 1{,}6}{1}=162$ kPa

**Məsələ 5.** Naməlum metalın 1 qramı duru sulfat turşusunda tamamilə həll edildikdə metal normal duzun tərkibinə keçir. Bu metalla reaksiyaya daxil olan sulfat turşusunun maksimum və minimum miqdarını müəyyən edin.

**Həlli:**Metalın duru sulfat turşusu ilə reaksiya tənliyini ümumi şəkildə aşağıdakı kimi yazmaq olar.

$2Me + nH_2SO_4 \rightarrow Me(SO_4)_n + nH_2\uparrow$ n⇨ metalın valentliyidir.

Aşağıdakı tənasübü quraq:

2Me → nmol $H_2SO_4$ $a=\frac{n}{2Me}=\frac{1}{2E}$

1 qr → a mol

E- metalın ekvivalentidir.formulun analizindən çıxır ki, Tl olduğu halda (ekvivalenti böyükdür) sulfat turşusunun sərfi minimum olur, Be (ekvivalenti kiçikdir) göturüldüyü halda $H_2SO_4$–ün sərfi maksimumdur.

Həqiqətən də:

$2Tl + H_2SO_{4(duru)} \rightarrow Tl_2SO_4\downarrow + H_2\uparrow$

$n(H_2SO_4)=\frac{1}{2 \cdot Me}=\frac{1}{2 \cdot 204{,}88} \cdot 0{,}00244$ mol(minimum)

$Be + H_2SO_4 \rightarrow BeSO_4 + H_2\uparrow$

$n(H_2SO_4) = n(Be) = \frac{1}{9} = 0{,}11$ mol(maksimum)

**Məsələ 6.** Polimer almaq üçün 6,2 qram etilenqlikol və 18,4 qram teraftal turşusu polikondensləşir.

1) Alınan polimerin maksimum polimerləşmə dərəcəsi neçə olar?
2) Nə üçün real polimerləşmə dərəcəsi nəzərə çarpacaq dərəcədə azalır?
3) Şərtdə verilmiş maddələrin polikondensləşməsindən alınan polimerin titirlənməsi üçün lazım olan 1,07 M(normal) NaOH məhlununun həcmini (ml ilə) hesablayın. Bu zaman hansı indiqator tətbiq olunmalıdır?
4) Reaksiyanın tənliyini yazın

**Həlli:**1) Maksimal polimer dərəcəsi o halda ola bilər ki, polimer yalnız qırılmamış bir polimer zəncirindən ibarət olsun. (onda onu vahid ........... kimi götürmək lazımdır.) $M(CH_2OH)_2$=62q/mol; $M(HCOOH\text{-}C_6H_4\text{-}COOH)$=166q/mol. məsələnin şərtinə görə 6,2q( 0,1mol) etilenqlikol və 18,4 q(0,11mol) teraftal turşusu götürülüb. Reaksiyada maddələrin stexiometrik əmsalları 1:1 kimidir. Onda hipotetik makromalekulda 0,1 mol elelmentar həlqə olar. Başqa sözlə

$6{,}02\cdot10^{23}\cdot0{,}1 = 6{,}02\cdot10^{22}$ sayda elementar həlqə olar. Deməli makromalekulda elementar həlqələrin sayı yəni polimerləşmə dərəcəsi maksimum $n=6{,}02\cdot10^{22}$ olmalıdır.

2) Real polimerləşmə dərəcəsi isə çox-çox kiçikdir, çünki çoxlu sayda zəncirlər əmələ gəlir. 0,11 mol tereftal turşusunda 2 dəfə çox, yəni 0,22 mol karboksil qrupu, 0,1 mol etilenqlikolda isə 0,2 OH qrupu olar. Karboksil qrupları 0,02 mol artıqdır.Bu karboksil qrupları oliqomer zəncirlərinin hər birinin bir kənarındadır. Onda müvafiq olaraq 0,01 mol və ya $6{,}02\cdot10^{23}\cdot0{,}01 = 6{,}02\cdot10^{21}$ sayda oliqomer zəncirləei vardır. Deməli real polimerləşmə dərəcəsi $n = \frac{6{,}02\cdot10^{22}}{6{,}02\cdot10^{21}} = 10$ olur.

3) Polimerin kənarlarındakı karboksil qruplarının (0,02 mol) titirlənməsinə 0,02 mol NaOH, başqa sözlə $\frac{0{,}02\cdot1000}{1{,}07} = 18{,}69$ ml NaOH məhlulu lazımdır.

İndekatorun seçilməsi, ekvivalent nöqtəsində məhlulun pH-ı ilə müəyyən edilir. Onda turşu, RCOONa duzu şəklində olar. Burada R-polimer zəncirinin qalığıdır. Məhlulun pH-nı ekvivalent nöqtəsində RCOONa-un dissosiasiya sabiti və $RCOO^-$ ionlarının qatılığına əsasən hesablamaq olar. Ekvivalent nöqtəsində məhlulun qatılığını 0,1 mol/l qəbul edək. Onda :

$$[H^+] = \sqrt{\frac{K_d\cdot10^{-14}}{C}} = \sqrt{\frac{10^{-4}\cdot10^{-14}}{10^{-1}}} = 3{,}2\cdot10^{-9}$$

$pH_{(məh)} = -\lg[H^+] = 8{,}5$

Ph = 8,5 intervalına uyğun indekator timol göyü və fenolftalein uyğun gəlir.

4)Polimerə qatı NaOH məhlulu ilə təsir etdikdəmürəkkəb efir rabitəsi qırılır,etilenqlikol və tereftal turşusunun Na duzu əmələ gəlir.

$$HO\text{-}[-CH_2-CH_2-O-CO-C_6H_4-CO-O-]_n\text{-}H + 2nNaOH \rightarrow nHO(CH_2)_2OH + nNaOOCC_6H_4COONa$$

**Bir sual, iki və ya daha çox cavab**

Bu tip məsələlərin əsas xüsusiyyəti ondadır ki, hər bir məsələnin iki və ya daha çox eyni qiymətli həlli var.

<u>**Məsələ 1.**</u> Elektrik lampalrının doldurulmasında istifadə edilən A qazını elektrik qövsündən keçirdikdə B qazı ilə reaksiyaya daxil olur. Əmələ gələn bərk maddəni qızdırdıqda bəzən partlayışla parçalanır. A və B maddələrini müəyyən edin.

<u>**I Həll :**</u> A ⇨ $N_2$ ; B ⇨ $O_2$ . Elektrik qığılcımında $N_2$ və $O_2$ qarşılıqlı təsirdə olub NO əmələ gətirir. NO isə $O_2$-nin artığı ilə reaksiyaya daxil olub $NO_2$ əmələ gətirir. $NO_2$ isə sönən qığılcımda $N_2O_5$ verir(partlaya bilər). Azotla elektrik lampalarını doldururlar, o isə atmosferdə vardır. Oksigen isə güclü oksidləşdiricidir.

$$N_2 + O_2 \xrightarrow{\text{ϟ}} 2NO\ ;\ 2NO + O_2 \rightarrow 2NO_2\ ;\ 4NO_2 + O_2 \rightarrow 2N_2O_5$$

<u>**II Həll :**</u>A ⇨ Xe ; B ⇨ $F_2$ . Şəraitdən asılı olaraq reaksiya nəticəsində $XeF_2$, $XeF_4$, $XeF_6$ əmələ gələ bilər. Elektrik qığılcımında ksenon, flüorla partlayıcı $XeF_6$

verə bilər. Ksenon atmosferdə var, ondan elektrik lampalarının doldurulmasında istifadə edilir, flüor güclü oksidləşdiricidir.

**Məsələ 2.** Adətən elektrolitik yolla alınan A mayesinin tərkibinə iki element B və C daxildir. Bu elementlər qonşu dövrlərdə yerləşir. A mayesini atom sənayesində tətbiq edirlər. B elementi bütün birləşmələrində birvalentlidir, bəsit maddə şəklində qüvvətli reduksiyaedicidir. Onun sıxlığı vahiddən kiçikdir. A, B və C-ni müəyyən edin.

**I Həll :** B ya hidrogen, ya da qələvi metaldır (onlar haqqında şərtdə məlumat daha çoxdur). Hidrogenin 2-ci dövr elementləri ilə əmələ gətirdiyi maye yalnız iki birləşmədir: $H_2O$ və HF($t_{qay}$↯<19,5$^0$C). Lakin onları elektrolizlə almırlar. Ağır suyu ($D_2O$) elektrolizindən alınır və atom sənayesində neytronları yavaşıdıcı kimi tətbiq edilir. Beləliklə, A ⇨ $D_2O$ ; B ⇨ $^2_1H$(D) ; C ⇨ O

**II Həll :** B ⇨ qələvi metal qəbul edək. Qələvi metallar normal şəraitdə maye halda olan birləşmələr əmələ gətirmir. Başqa həll ola bilər......A ⇨kalium ilə natriumun ərintisidir. Onu KCl və NaCl qarışığının ərintisinin elektrolizi ilə alırlar, ondan atom sənayesində istilik daşıyıcısı kimi istifadə edirlər. Beləliklə, A ⇨K və Na –dan ibarət ərinti ; B ⇨K ; C ⇨ Na-dur.

**Məsələ 3.** Naməlum maddənin 3,6 qramı xlorid turşusu ilə qarşılıqlı təsirdə olduqda 3,36 l (n.ş-də) yüngül rəngsiz qaz ayrılır. Naməlum maddəni müəyyən edin.

**Həlli :** Məlumdur ki, xlorid turşusu ilə reaksiyada ayrılan yüngül qaz hidrogendir. Naməlum maddənin ekvivalentini tapaq.

$$E_{maddə} = \frac{3{,}6 \cdot 11{,}2}{3{,}36} = 12$$

Bu cür ekvivalent ya Mg-a, ya da Ti-a uyğundur. Fikirləşmək olar ki, iki həll tapılmışdır. Lakin Ti, HCl ilə reaksiyada $TiCl_3$ verir, $TiCl_4$ verir. $TiCl_3$ alınanda isə $E_{Ti} = \frac{48}{3} = 16$ olar. Onda ikinci həll hara getdi? Məsələnin şərtini diqqqətlə oxumaq lazımdır. Məsələnin şərtində metaldan yox, maddədən söhbət gedir. Metalların hidridlərində xlorid turşusu ilə $H_2$ ayırır. Metalın hidridinin ekvivalenti, metalın ekvivalentindən 2 dəfə çox olur. Bizim misalda $E_{MeHn}$ = 24. Bu ekvivalent NaH-ə uyğundur. Deməli məsələnin şərtini 2 maddə Mg və NaH ödəyir.

## Yarımçıq şərtli məsələlər

Öz mahiyyətinə görə yarımçıq şərtli məsələlər, standart məsələlərlə oxşardır, lakin tipik standart məsələlərin şərtindən fərqli olaraq onlarda bir və ya bir neçə element çatmır. Bir sıra hallarda məsələnin şərtinin diqqətlə analizi ilə çatışmayan element və ya elementləri müəyyən etmək olar.

Bu cür məsələlərin həllinə müxtəlif yanaşmalar mümkündür. Yarımçıq

şərtli məsələlərə iki mümkün yanaşmanın birincisi məsələnin şərtində çatışmayan elementin (və ya elementlərin) müəyyən edilməsinə cəhddir. Bir sıra hallarda bu mümkün olmur, onda məsələnin digər həlli yolunu axtarmaq lazımdır.

Yarımçıq şərtli hesablama məsələlərinin həllinə ikinci yanaşma ondan ibarətdir ki, məsələni ümumi şəkildə həll etməyə cəhddir, ona görə ki, bir sıra hallarda məsələnin şərtində çatışmayan elementlər məsələnin həlli üçün vacib deyildir(məsələnin həllinin son nəticəsinə təsir etmir).

**Məsələ 1.** Əgər hidrogen-halogenidin (HA) məhlulunun bir valentli metalın oksidi ilə qarşılıqlı təsiri nəticəsində alınan məhlulda duzun kütlə payı, ilkin hidrogen-halogenidin kütlə payına bərabərdirsə, onda ilkin məhluldakı hidrogen-halogenidin (HX) kütlə payını hesablayın.

**Həlli.** Bir çox məsələlərdə hesablama reaksiya tənliyinə əsasən aparılırsa, onda məsələnin həllinin ən effektiv üsulu alqebraik metoddur, bu zaman axtarılan kəmiyyətlər məlum olmayanlarla (x, y və s.) işarə edilir, sonra isə tənlik və ya tənliklər sistemi tərtib edilir. Verilmiş məsələdə məhluldakı turşunun kütlə payını məsələnin şərtindəki reaksiya tənliyi ilə əlaqələndirmək lazımdır. Reaksiyanın tənliyini yazaq

$$Me_2O + 2HA \rightarrow 2MeA + H_2O$$

Reaksiya tənliyindən görünür ki, 1 mol $Me_2O$-ya 2 mol HA uyğun gəlir və 2 mol MeA duzu əmələ gəlir. Metalın nisbi atom kütləsini X, halogeninkini (A) isə y, ilkin məhluldakı turşunun kütlə payını ω ilə işarə edək. Fərz edək ki, 1 mol $Me_2O$ və 2 mol HA qarşılıqlı təsirdə olmuşdur. Onda HA-nın başlanğıc məhlulunun və əmələ gələn duz məhlulunun kütləsini hesablayaq.

$$m_{1(məh)} = 2\cdot\frac{y+1}{\omega}\ \text{qr};\quad m_{2(məh)} = \frac{2x+16+2(y+1)}{\omega}\ \text{qr}$$

Əmələ gələn məhlulda duzun kütləsi 2(x+y) qr olur. Məsələnin şərtinə görə əmələ gələn məhluldakı duzun kütlə payı, ilkin məhluldakı turşunun kütlə payına bərabərdir. Onda

$$\omega = \frac{2(x+y)}{2x+16+2(y+1)\cdot\frac{1}{\omega}}$$

Üç məchullu tənlik alınır, ω-nın qiymətini 1-ci tənlikdə yerinə yazsaq, y ixtisar olunar, $\omega = \frac{x-1}{x+8}$ alınar. Litium üçün ω = 6/15 = 0,4 alınır. x=23(Na) olarsa, ω=22,31 olar. Aydındır ki, HA turşusunun Na duzu üçün belə kütlə payı real deyil (kütlə payı 0 ÷1arasında qiymət alır), daha ağır metallar üçün də belə kütlə payı real deyil (kalium üçün ω=0,82 olar). Ona görə də məsələnin şərtini yalnız $Li_2O$ oksidi ödəyir, turşu isə HCl, HBr, HJ ola bilər(LiF duzu suda həll olmur, lakin LiCl, LiBr, LiJ duzlarının 40%-li məlulu real mövcud ola bilər). Qeyd edək ki, kütlə payı 0,4 olan LiCl və HCl məhlulları adi şəraitdə mövcuddur. Beləliklə HA turşusunun başlanğıc məhlulda kütlə payı 0,4-dür.

Bu məsələnin digər həlli üsulları da vardır. Lakin əmin olmaq olar ki, digər

həll üsulları təklif olunandan daha mürəkkəbdir.

**Məsələ 2.** Qarışıqdakı hər bir maddənin kütlə payını (%-lə) hesablayın.

| Qarışığın tərkibi | Qarışıqda $\omega(H_2O)$; %-lə |
|---|---|
| $CuSO_4 \cdot 5H_2O$<br>$Na_2CO_3 \cdot 10H_2O$ | 38 |

**Həlli:** Fərz edək ki, qarışığın kütləsi 100 qramdır. Qarışıqdakı mis kuporosunun kütlə payını x ilə işarə edək. Onda qarışıqda 100x mis kuporosu və 100-100x qram soda olar. Qarışıqda suyun kütləsi 100·0,38=38 qram olur. Onda mis kuporosunda (100x qram) suyun kütləsi 100x·5·18/250, sodada (100-100x qram) suyun kütləsi (100-100x)·10·18/286 olar. Buradan da suyun ümumi kütləsini aşağıdakı kimi yaza bilərik.

$$38=5\cdot18\cdot100\cdot\frac{X}{250}+10\cdot18\cdot\frac{100-100X}{286};\quad x=0{,}925$$

Onda qarışıqda duzların kütlə payı:

$\omega(CuSO_4 \cdot 5H_2O) = 92{,}5\%$ ; $\omega(Na_2CO_3 \cdot 10H_2O) = 100-92{,}5 = 7{,}5\%$ olar.

**Məsələ 3.** Maqneziumun naməlum X metalı ilə ərintisinin yanması nəticəsində Mg və X-metalının oksidləri qarışığı alınır. Oksidlər qarışığının kütləsi ilkin ərintinin kütləsindən 2,3 dəfə şoxdur. İlkin ərintinin keyfiyyət və kəmiyyət tərkibini müəyyən edin.

**Həlli:** Əgər ərintinin tərkibindəki naməlum metal bilinsəydi məsələni standart metodika ilə həll etmək olardı. Bu məsələnin həlli üsullarından biri aşağıdakı kimidir. Fərz edək ki, 1qr ərintidə maqneziumun kütləsi x qramdır. X metalının kütləsi isə (1-x)qram olar. Mg və X-ın oksidləşmə tənliyindən istifadə edərək , əmələ gələn oksidlərin kütləsini hesablamaq olar. Şərtə görə bu oksidlərin kütləsi 2,3 qram olur.

$$\overset{x}{2Mg} + O_2 \rightarrow \overset{y}{2MgO};\quad y = 40x$$
$$2\cdot24 \qquad\qquad 2\cdot40$$

$$\overset{1-x}{X} + \frac{a}{2}O_2 \rightarrow \overset{z}{X_2O_a} \qquad 2z = (1-x)\cdot(2x+16a)$$
$$2X \qquad\qquad 2X+16a \qquad z = \frac{(1-X)\cdot(2X+16a)}{2}$$

$$m(\text{oksidlər}) = y + z = 40x + \frac{(1-X)\cdot(2X+16a)}{2}$$

Şərtə görə m(oksidlər) = m(metallar) ·2,3

Onda $40x + \frac{(1-X)\cdot(2X+16a)}{2} = (x+1-x)\cdot2{,}3 = 2{,}3$

Alınan tənliyi həll etsək, x-i tapa bilərik. Onda $\omega(Mg)$ = X. Bu məsələnin daha rasional üsulla, sistem tənlik qurmaqla həll etmək olar. Qarışıqdakı metallardan Mg-un kütləsini 1qr Mg, X metalının kütləsini 1 qr qəbul edək. Metalların yanmasından əmələ gələn oksidlərin kütləsini $k_1(MgO)$, $k_2(X_2O_a)$ qəbul edək.

Onda $\begin{cases} x + y = 1 \\ k_1x + k_2y = 2{,}3 \end{cases}$ x = $\omega(Mg) = \frac{k_2-2{,}3}{k_2-k_1}$ ; ω(X) = $\frac{2{,}3-k_1}{k_2-k_1}$ olar.

Problem ərintinin tərkibindəki X metalındadır. Bu çətinlikdən necə çıxmaq olar? Bunun üçün yenə məsələnin şərtinə qayıtmaq lazımdır. Məsələnin şərtində ərintinin yanması nəticəsində əmələ gələn oksidlərin kütləsinin artmasıdır. Əgər ərintidə yalnız Mg olsaydı, onda onun yanmsından əmələ gələn oksidin kütləsinin Mg-un kütləsinə nisbəti 2,14 olardı. Deməli 2-ci metal ekvivalent molyar kütləsi Litiumunkundan kiçik olan metal olmalıdır. Onda məsələnin şərtini yalnız Berillium (Be) ödəyir, çünki $E_M$(Be)=9:2=4,5 qr/mol. Beləliklə X metalı Be-dur. Bunu bildikdən sonra məsələni standart üsulla həll etmək olar.

**Məsələ 4.** Xlorid turşusu məhlulunu eyni kütlədə götürülmüş $Na_2CO_3$ məhlulu üzərinə tökdükdə alınan məhlulun kütləsi məhlulların kütlələri cəmindən 10% az olur. Əmələ gələn duzun son məhluldakı kütlə payını hesablayın.

**Həlli:** Fərz edək ki, hər iki məhluldan 50 qr götürülmüşdür. Alınan son məhsulun kütləsi 100qr olmalı idi, lakin reaksiya nəticəsində ayrılan karbon qazının hesabına kütlə 10% azalaraq 90 qr olur. Əmələ gələn NaCl-in kütləsini hesablayaq:

$2HCl + Na_2CO_3 \rightarrow 2NaCl + CO_2\uparrow + H_2O$

117 qr 44 qr

117 qr NaCl alınanda → 44 qr $CO_2$ qazı ayrılır.

X qr NaCl alınanda → 10 qr $CO_2$ ayrılır.

Buradan x = 26,6 qr NaCl. Onda ω(NaCl) = $\frac{26{,}6}{90} \cdot 100\% = 29{,}5\%$

### Təcrübələrin nəticələrinə əsaslanan məsələlərin həlli üsulları

Bu tip məsələlərə ən tipik misal nəcib qazlar və onların birləşmələrinin kəşfini göstərmək olar. Müşahidəçilik, intuisiya və fantaziya alimlər üçün daha vacibdir.

**Məsələ 1.** İki sınaq şüşəsinin hər birinə eyni sink parçası əlavə edilir, sonra hər birinə bir qədər 30%-li nitrat turşusu və eyni miqdarda su tökülür.Birinci sınaq şüşəsinə əvvəlcə su tökülür, sonra yavaş-yavaş turşu əlavə edilir.İkinci sınaq şüşəsinə isə əvvəlcə turşu məhlulu, sonra isə yavaş-yavaş su əlavə edilir. Hansı maddələər əmələ gəlir? Reaksiyadan sonra sınaq şüşələrindəki maddələrin müxtəlifliyini necə sübut etmək olar?

**Həlli:** Birinci sınaq şüşəsində duru nitrat turşusu əmələ gəlir, o da sinklə reaksiyaya daxil olaraq $NH_4NO_3$ əmələ gətirir.

$4Zn + 10HNO_3 \rightarrow 4Zn(NO_3)_2 + NH_4NO_3 + 3H_2O$

Həmin sınaq şüşəsinə turşu əlavə etdikcə qatılığı artır, bu da digər məhsullar əmələ gətirməklə digər reaksiyanın (NO əmələ gəlməsi) getməsinə səbəb olur. İkinci sınaq şüşəsində kifayət qədər qatı nitrat turşusu olur, o da sinklə reaksiyay daxil olaraq NO əmələ gətirir.

$3Zn + 8HNO_3 \rightarrow 3Zn(NO_3)_2 + 2NO\uparrow + 4H_2O$

Bu sınaq şüşəsinə su əlavə etdikcə qatılığı azalır, lakin ammonium ionunun əmələ gəlməsinə yetmir.

Beləliklə ammonium nitrat ($NH_4NO_3$) yalnız birinci sınaq şüşəsində əmələ gəlir, o da qələvi təsiri təyin edilir.

$NH_4NO_3 + NaOH \rightarrow NaNO_3 + NH_3\uparrow + H_2O$

$Zn(NO_3)_2 + 2NaOH \rightarrow Zn(OH)_2\downarrow + 2NaNO_3$

**Məsələ 2.** İki gənc kimyaçı nitrat turşusunun qatılığını müəyyən edirlər. Onlardan biri 10 ml turşu götürür və ona artıqlaması ilə götürülmüş mis əlavə edir. Bu zaman o, 7460 ml qaz alır, bu qazı qüvvətli soyutduqda göyümtul-yaşıl rəngli maye alır.İkinci gənc kimyaçı götürdüyü 10 ml nitrat turşusunu 10 dəfə su ilə durulaşdırır, alınan məhlula qurğuşun tozu əlavə edir. Bu zaman o,560 ml qaz (n.ş-də) alır. Nitrat turşusunun qatılığını aparılan təcrübələrin əsası ilə müəyyən edin.

**Həlli:** Birinci kimyaçının güclü soyutma ilə aldığı göyümtul-yaşıl rəngli maye $N_2O_3$-dür. Beləliklə misin nitrat turşusu ilə reaksiyasından alınan qaz, NO və $NO_2$-nin ekvimolyar qaqrışığına uyğundur.

$Cu + 4HNO_3 \rightarrow Cu(NO_3)_2 + 2H_2O + 2NO_2\uparrow$

$3Cu + 8HNO_3 \rightarrow 3Cu(NO_3)_2 + 4H_2O + 2NO\uparrow$

$NO + NO_2 \rightarrow N_2O_3$

746 ml qaz (n.ş-də) 0,033 moldur və ya hər birindən 0,0167 mol olan NO və $NO_2$ qazıdır. Deməli reaksiyaya $0{,}0167 \cdot 6 = 0{,}1$ mol $HNO_3$ daxil olur.Müvafiq olaraq 10 ml $HNO_3$ məhlulunda 0,1 mol turşu olduğu müəyyən edilir. Deməli məhlulun 1litrində 10 mol turşu vardır.

İkinci təcrübədə aydındır ki, duru $HNO_3$ və az aktiv metal (Pb) istifadə edilmişdir. Bu reaksiyada yalnız NO qazı ayrılır.

$3Pb + 8HNO_3 \rightarrow 3Pb(NO_3)_2 + 2H_2O + 2NO\uparrow$

560 ml qaz (n.ş-də) 0,025 mol edir.Tənliyə əsasən

8 mol $HNO_3$-dən $\rightarrow$ 2 mol NO alınır

x mol $HNO_3$-dən $\rightarrow$ 0,025 mol NO alınır x= 0,1 mol

Deməli, başlanğıc 10 ml turşu məhlulunda 0,1 mol $HNO_3$ vardır. Bu da birinci təcrübənin nəticəsi ilə üst üstə düşür.

Beləliklə, alınan qazların həcmlərinin müxtəlifliyi reaksiyanın aparılması şəraitinin müxtəlifliyi ilə izah edilir.

## Mürəkkəb hesablama məsələləri

Mürəkkəbləşdirilmiş məsələlər, tədris proqramında nəzərdə tutulmuş müxtəlif nəzəri materialların birləşdirilməsi əsasında yaradılmış müxtəlif tip tapşırıqlardır.

Bu tip məsələlər sualların orijinal və adi olmayan qoyuluşu ilə fərqlənir.

Belə məsələlərin həlli ayrı-ayrı kimyəvi hadisə və faktları məntiqi əlaqələndirmək bacarığı tələb edir. Burada maddənin nəinki kimyəvi, hətta fiziki xassəsini şagirdin bilməsi lazımdır. Bu tip məsələlərin həllində şagird kimyanın müxtəlif bölmələrini, hətta fizika və riyaziyyatın ümumi pirinsiplərini bilməlidir. Belə tip məsələlərin həlli kimyadan nəzəri və praktiki biliklərin möhkəmləndirilməsini stimullaşdırır.

Siz yoxlama yazı işində köçürə bilirsizmi?

Bəli, bu nə sualdır? Fikirləşməyən şagird burada nə bacarıq tələb olunur ki? Qonşudakı şagirdin cavabına baxıb öz dəftərimə köçürtdüm. Lakin köçürtmə həmişə asan olmur. Məsələ burasındadır ki, müəllimlər həmişə köçürtməyə qarşı mübarizə aparmağa çalışırlar. Ona görə də şagirdlərə müxtəlif variantlarda yoxlama yazı işi verirlər. Bəs onda siz şagirdlər nə edirsiniz, məsələni özünüz həll etmək məcburiyyətindəsiniz. Sən demə hətta qonşu şagirddə başqa variantda məsələ olsa da, ondan köçürtmək olarmış. Siz bunun necə baş verdiyini aşağıdakı misalda görəcəksiniz. Fərz edək ki, siz aşağıdakı məsələni həll edirsiniz.

HCl məhlulunu 2 dəfə azaltmaq üçün neçə qram NaOH tələb olunduğunu esablayın.

| Reaksiyaya daxil olan məhlullar | | | |
|---|---|---|---|
| NaOH məlulu | | HCl məhlulu | |
| $m_{(məh)}$(qram) | ω(%) | $m_{(məh)}$(qram) | ω(%) |
| X | 5 | 200 | 10 |

Sizin qonşu şagird isə aşağıdakı məsələni həll edir.

HCl məhlulunu 2 dəfə azaltmaq üçün neçə qram NaOH məhlulu lazımdır?

| Reaksiyaya daxil olan məhlullar | | | |
|---|---|---|---|
| NaOH məlulu | | HCl məhlulu | |
| $m_{(məh)}$(qram) | $m_{(məh)}$(qram) | $m_{(məh)}$(qram) | ω(%) |
| X | 5 | 400 | 10 |

Görürsünüz ki, hər iki qonşu şagirdin həll edəcəyi məsələlər çox oxşardır. Yalnız HCl məhlullarının kütlələri fərqlidir, qonşu şagirddəki məhlulun kütləsindən 2 dəfə azdır. Ona görə də siz məsələni həll etməyə də bilərsiniz. Sadəcə qonşu şagirdin məsələnin həlindəki cavabı 2-yə bölmək yetərlidir.

Bu üsuldan həmişə istifadə etmək olarmı? Lakin bu həmişə mümkün deyil. Fərz edək ki, siz aşağıdakı məsələni həll edirsiniz.

| Qarışığın tərkibi | Qarışığın kütləsi (qramla) | Qarışığın artıqlaması ilə götürülmüş HCl ilə reaksiyasından ayrılan qazın həcmi (n.ş-də litrlə) | Qarışıqda ω($Na_2CO_3$) |
|---|---|---|---|
| $Na_2CO_3$<br>$NaHCO_3$ | 3,49 | 0,784 | X% |

X-i müəyyən edin
Sizin qonşu şagirdin tapşırığı

| Qarışığın tərkibi | Qarışığın kütləsi (qramla) | Qarışığın artıqlaması ilə götürülmüş HCl ilə reaksiyasından ayrılan qazın həcmi (n.ş-də litrlə) | Qarışıqda $\omega(Na_2CO_3)$ |
|---|---|---|---|
| $Na_2CO_3$<br>$NaHCO_3$ | 6,98 | 1,568 | X% |

Yenə də qonşu şagirdlərin həll edəcəyi tapşırıqlar çox oxşardır, lakin birindəki rəqəmlər, digərindən 2 dəfə çoxdur. Onda cavab necə olsun? Yenə də 2 dəfə çox olmalıdırmı? Lakin belə deyil. Verilmiş halda sizin cavabınız, qonşu şagirdin cavabı ilə üst-üstə düşür.

Bunu çox sadə izah etmək olar. Hər iki məsələni həll etsək $\omega$=75,94% olar. Məsələnin şərtində verilən məlumatları (onları parametrlər adlandırmaq olar) iki tipə - intensiv və ekstensiv bölmək olar. Fərz edək ki, sizdə bir neçə sistem var, onunla yanaşı siz eyni bir sistem qoymusunuz, sonra onlar arsındakı arakəsməni götürsəniz iki sistemin cəmindən ibarət sistem alarsınız. Aydındır ki, sonuncu sistemdə eyni parametrlərin qiyməti başlanğıc sistemdəkindən 2 dəfə çox olacaq, digər parametrlərin qiyməti isə dəyişməyəcək.

Sistemi 2 dəfə artırdıqda qiymətləri 2 dəfə artan parametrləri ekstensiv, sistemi 2 dəfə artırdıqda qiyməti dəyişməyən parametrləri isə intensiv parametrlər adlandıraq. Kütlə və həcm ekstensiv parametrlərdir, həllolma, qatılıq, kütlə payı, qarışığın tərkibi, kütlə paylarının nisbəti isə intensiv parametrlərdir.

Müəllim üçün müxtəlif tipməsələlər fikirləşib yazmaq çətinlik törədir. Ona görə də tez-tez müxtəlif rəqəmlərdən tərtib olunmuş eyni tip məsələləri şagirdlərə verir. Əgər siz görsəniz ki, qonşudakı məsələ sizdəki kimidir və yalnız intensiv parametrlərin qiyməti bir neçə dəfə fərqlənir, onda aşağıdakı qaydadan istifadə etmək olar.

Fərz edək ki, sizin məsələdəki intensiv parametrlərin qiyməti, qonşu şagirdin məsələsindəki intensiv parametrlərin qiyməti ilə eynidir, lakin sizin məsələdəki ekstensiv parametrlərin qiyməti, qonşu şagirdin məsələsindəki ekstensiv parametrlərin qiymətindən eyni dəfə fərqlənirsə, onda:

-əgər məsələnin cavabı ekstensiv parametrlə soruşulursa, onda sizin məsələnin cavabı, qonşu şagirdin cavabından eyni dəfə fərqlənməlidir.

-əgər məsələnin cavabı intensiv parametrdirsə, onda sizin cavablar üst-üstə düşür.

## Sistem tənliklərdən istifadə etməklə kimya məsələlərinin həlli üsulları

Bu üsul birbaşa riyazi həll üsulu ilə oxşardır. Lakin məsələnin şərtində verilən bir neçə dəyişənin əsasında sistem tənlik qurub onu həll etməklə riyazi üsulundan fərqlənir. Sistem tənliyin həlli məsələnin həllinə düzgün yol göstərir.

Məsələnin şərtinə axtarılacaq kəmiyyətləri, dəyişənlərin sayını bilməklə tapmaq olar. Bir çox məsələlərin birbaşa və ya dolayı riyazi həlli üsulları xətti sistem tənliklərinin həllindən başlayır.

Tipik sistem tənliklərə baxaq.

$$\begin{cases} x + y = a \\ k_1x + k_2x = b \end{cases} \qquad x = \frac{ak_2 - b}{k_2 - k_2}, \qquad y = a - x \quad (1)$$

$$\begin{cases} ax + by = c \\ mx + ny = b \end{cases} \qquad x = \frac{c_n - c_{mb}}{a_n - b_m}, \qquad y = \frac{a_d - m_c}{a_n - b_m} \quad (2)$$

$$\begin{cases} x + y + z = a \\ d_1x + d_2x + d_3x = b \\ d_1x + d_2x + d_3x = c \end{cases} \qquad x = \frac{(b - d_3a)\ (k_2 - k_1) - (c - k_3a)(d_2 - d_1)}{D}$$

$$y = \frac{(c - k_3a)\ (d_1 - d_2) - (b - d_3a)(k_1 - k_2)}{D}$$

$$z = a - x - y$$

$$D = (d_1 - d_3)(k_2 - k_3) - (d_2 - d_3)(k_1 - k_3)$$

Üç məchullu üç xətti tənliklər sistemini proqranlaşdırılmış mikrokalkulyatordan istifadə etməklə həll etmək daha sərfəlidir. Çünki 1-ci sistem tənlikdən istifadə etməyə daha tez-tez rast gəlini, onu da yadda saxlamaq tələb olunur.

**Məsələ 1**.

| Qarışığın tərkibi | Qarışığın kütləsi (qramla) | Qarışığın artıqlaması ilə götürülmüş HCl ilə reaksiyasından ayrılan qazın həcmi (n.ş-də litrlə) | ω($Na_2CO_3$) (%- lə) |
|---|---|---|---|
| $Na_2CO_3$ $NaHCO_3$ | 13,96 | 3,136 | ω |

ω –nı hesablayın. M($Na_2CO_3$) = 106 ; M($NaHCO_3$) = 84q/mol

**Həlli** : Qarışığındakı $Na_2CO_3$ – ün mol miqdarını x, $NaHCO_3$ - ın mol miqdarını isə y ilə qəbul edək. Sonra mərhələli həll üsulundan istifadə edək.

**I mərhələ :** m(qarışıq) = $\nu_1 \cdot M_1 + \nu_2 \cdot M_2$ = 106x + 84y = 13,96

**II mərhələ :** Reaksiya tənlikləri əsasında ayrılan karbon qazının mol miqdarını hesablayaq.

$Na_2CO_3 + 2HCl \rightarrow 2NaCl + H_2O + CO_2\uparrow$
x mol x · 22,4 *l*

$NaHCO_3 + 2HCl \rightarrow 2NaCl + H_2O + CO_2\uparrow$
y mol y · 22,4 *l*

$\nu(CO_2)_{ümumi}$ = x + y
$\nu(CO_2)_{ümumi}$ = 22,4x + 22,4y = (x + y)·22,4 = 3,136
Buradan x + y = 0,14 mol

**III mərhələ :** Qarışığın kütləsi və karbon qazının mol miqdarı əsasında sistem tənlik quraq və həll edək.

$$\begin{cases} 106x + 84y = 13,96\ qr \\ x + y = 0,14\ mol \end{cases} \quad \left| \begin{array}{l} Sistem\ tənliyi\ həll\ etdikdə \\ x = 0,1\ ; \quad y = 0,04\ mol\ olur \end{array} \right.$$

$$\omega\ (Na_2CO_3) = \frac{\nu \cdot M}{m_{(qarışıq)}} \cdot 100\% = \frac{0,1 \cdot 106}{13,96} \cdot 100\% = 75,94\%$$

## İstifadə edilmiş ədəbiyyat:


1. Ə.Əbdürrəhimov. Kimya tədrisi üsulu. B., 1959.
2. Кузнецова Н.Е. и др. Методика преподавания химии. 1984.
3. Цитович И.К., Протасов П.Н. Методика решения расчетных задач по химии. М., 1983.
4. Ерыгин Д.Г., Шишкин Е.А. Методика решения задач по химии. М., 1989.
5. Кузьменко Н.Е., Еремин В.В. Химия., 2400 задач для школьников и поступающих в вузы. М.: Дрофа, 1999.
6. Штремплер Г., Хохлова И. Методика решения расчетных задач по химии (8-11 кл). Просвещения, 2000.

*М.М.Аббасов, Т.Ф.Вализаде, Ж.Е.Местелили, Л.С.Ибрагимли, Г.Х.Алиева*

**Типы химических задачи**

**РЕЗЮМЕ**

В статье идет речь о значении вычислительных задач в преподавании курса химии, об их классификации, методах решения, в том числе об общем требовании относительно обучению решению вычислительных задач и о методике обучения.

*M.M.Abbasov, T.F.Valizade, J.E. Mestelili, L.S.İbrahimli, G.H.Aliyeva*

**Types of chemical tasks**

**SUMMARY**

In the stdudying of scholl chemistry courses the importance of accounting issues, their classification, solving methods, general requirements about studying solution of accounting issues, studying methods are talked in article.

**Açar sözlər:** kimyanın tədrisi metodikası, hesablama məsələləri, hesablama məsələlərinin həlli metodikası

**Ключевые слова:** методика преподавания химии, вычислительные задачи, методика решения вычислительных задач

**Key words:** methodology of teaching of chemistry, accounting issues, methodological solution of accounting issues.